RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 260 (8853) ÇƏRŞƏNBƏ, 1 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





◆ Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# UCALAN və UCALDAN RƏHBƏR

Əgər cənab İlham Əliyev təkcə işğaldakı torpaqları qaytararaq ölkəmizin ərazi bütövlüyünü bərpa etsəydi, bu, onun Azərbaycan tarixinin ən şərəfli səhifəsində əbədi olaraq özünə ən yüksək yer tutmasına bəs edərdi!

Amma tarixinin ən qüdrətli Azərbaycanını yaradan Prezident İlham Əliyevin bu şanlı qələbəyədək etdiklərinin də sayı-hesabı yoxdur!

Azərbaycan xalqı həm də belə bir rəhbəri olduğuna görə şərəf və qürur duymağa, daim onunla fəxr etməyə haqlıdır!

*Cənab İlham Əliyev hansı işə qol qoyubsa, hansı müşkül məsələnin həlli ilə məşğul olubsa, həmişə onu uğurla, qələbə ilə başa çatdırıb!*

*Ruhdan düşmək, yarı yolda dayanmaq, geriyə çəkilmək İlham Əliyevin xarakterinə ziddir!*

*Nə zəhmətdən yorular, nə inadından dönər, nə də həqiqət saydığı yoldan qayıdar!*

*Əsl qladiator, cəngavər kimi sonadək döyüşər, məqsədinə çatmayanadək rahatlıq və dinclik tapmaz!*

*İşıqlı zəkası, poladtək möhkəm iradəsi, özünəməxsus fəhmi və uzaqgörənliyi, xarizması və sözübütövlüyü qələbəsini təmin edən ilahi keyfiyyətləridir!*

**İlham Əliyev Heydər Əliyev məktəbində əyani "təhsil alan", daim onun yanında olaraq ondan öyrənən, özü də məktəb yaradan yeganə şəxsiyyətdir.**

*Ən nəhayət, Ulu Tanrı daim onunladır, ona kömək edir, arxa durur, qoruyub saxlayır!*

## ZAMANINDA VƏ DÜZGÜN ATILAN ADDIMLAR

Deyirlər, ən dəqiq hesablamalar riyaziyyatçılara məxsusdur!

Yəqin ki!

Riyazi hesablamalar adətən kağız üzərində, indiki zamanda isə kompüterlərdə aparılır.

*Nədənsə ən dəqiq hesablamaların nəhəng siyasətçilərə məxsus olduğu qənaətindəyəm!*

Çünki onlar öz hesablamalarını zəkalarında, həm də zaman üzərində, zamanı və dövrü nəzərə almaqla edirlər!

Hesablamaların dəqiqliyi isə hadisələr başa çatdıqdan sonra görünür, atılan addımların uğuru, görülən işlərin nəticəsi ilə öz təsdiqini tapır!

**Riyazi hesablamaların səhvi özünü eksperimentin uğursuzluğunda, nisbətən kiçikhəcmli məsələlərdə büruzə verir.**

**Siyasətçinin səhvi isə zamanın gedişində təkcə geriləmə ilə deyil, həm də böyükhəcmli iqtisadi ziyanla, bəzən çoxsaylı insan tələfatı ilə sonuclana bilir!**

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Zəfər müharibəsini hazırlaması, hərbi əməliyyatların gedişatı, yekunu və nəticələrinin uğuru isə, şübhəsiz, XXİ əsrin ən mükəmməl hərbi-siyasi gedişlərinin hesablanma nümunəsi sayıla bilər!*

**Bunu təkcə II Qarabağ müharibəsinin möhtəşəm yekunu deyil, həm də onun dərslərindən öyrənənlərin sayı və sanbalı da təsdiq edir!**

*Ardı 2-3-cü səh.*

# Azərbaycan və Pakistan daim bir-birini dəstəkləyir



**Noyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının müdafiə istehsalatı naziri, Azərbaycan-Pakistan Birgə Komissiyasının həmsədri xanım Zobaida Cəlalı qəbul edib.**

*Ardı 4-cü səh.*

# Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə

2021-ci il noyabrın 30-da Xızı rayonu ərazisindəki "Qaraheybət" aviasiya poliqonunda Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində heyət üzvlərinin həlak olması xəbəri bizi son dərəcə kədərləndirdi.

Bu ağır itkinin acısını Sizinlə yaşayır, dərdinizi bölüşür, Sizə və doğmalarınıza Mehriban xanım ilə birlikdə dərin hüznlə başsağlığı veririk.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı, 30 noyabr, 2021-ci il***

# Türkiyə Prezidenti Azərbaycan Prezidentinə telefonla zəng edib



**Noyabrın 30-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Türkiyə Prezidenti helikopter qəzası nəticəsində hərbi qulluqçuların həlak olması ilə bağlı dövlətimizin başçısına başsağlığı verib, həlak olanların ailə üzvlərinə səbir diləyib və yaralıların tezliklə sağalmasını arzulayıb.

Azərbaycan Prezidenti başsağlığına görə Türkiyə Prezidentinə minnətdarlığını bildirib.

***Prezidentin Mətbuat Xidməti***

# Milli Məclisin rəhbərliyi və deputatlar helikopter qəzasında həlak olanların ailələrinə başsağlığı veriblər

Milli Məclisin rəhbərliyi və deputatlar Xızı rayonu ərazisində baş verən helikopter qəzasında həlak olan hərbçilərin ailələrinə başsağlığı veriblər.

AZƏRTAC xəbər verir ki, bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb.

Məlumatda deyilir: "Milli Məclisin rəhbərliyi və deputatlar Xızı rayonu ərazisindəki "Qaraheybət" aviasiya poliqonunda Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində heyət üzvlərinin həlak olmasından kədərləndiklərini bildirir, həyatlarını itirənlərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!".

# "Qardaş Türkiyə hər zaman Azərbaycanın kədərini və sevincini bölüşür"

Noyabrın 30-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, M. Çavuşoğlu təlim uçuşları zamanı Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması ilə əlaqədar dərin təəssüf hisslərini bölüşüb, qəza nəticəsində həlak olanlara Allahdan rəhmət, yaralılara şəfa diləyib.

Ceyhun Bayramov başsağlığına görə M. Çavuşoğluna təşəkkür edib, qardaş Türkiyənin hər zaman Azərbaycanın kədərini və sevincini bölüşdüyünü vurğulayıb.

Nazir Ceyhun Bayramov öz növbəsində İstanbulda baş verən qasırğa nəticəsində ölüm hallarının və yaralıların olması ilə bağlı kədərləndiyimizi həmkarının diqqətinə çatdırıb, təbii fəlakət qurbanlarının yaxınlarına səbir arzulayıb.




# UCALAN və UCALDAN

*Əvvəli 1-ci səhifədə*

*Cənab İlham Əliyev öz hesablamalarını çox sadə, eyni zamanda hamının başa düşəcəyi şəkildə belə ifadə edir:*

*"Nəyi nə vaxt və necə etmək!"*

**Əslində, bu sadə formulun arxasında böyük intellekt, zəngin təcrübə, hadisələrin mahiyyətinə varıb onlardan düzgün nəticə çıxarma, üstəgəl, əlverişli məqamı gözləmə və vaxt seçmək məharəti də dayanır!**

Bəli, zamanında atılan addımların qalibiyyətinə Ulu Tanrı özü də kömək edirdi!

Üstəlik, 44 günlük Zəfər savaşında sanki İlham Əliyevin yanında duraraq əlini onun kürəyinə qoymuşdu!

Eyni zamanda seçilən "hərbi məqam"ın "yetişdirilməsində" də Müzəffər Ali Baş Komandan ilə birlikdə idi.

BAXIN:

- Dünyanın başı COVID-19 adlı bir bəla ilə mübarizəyə qarışmışdı...
- Bütün dövlətlər qapılarını bağlamış, özünə qapılmış, mühüm tədbirlər, konfranslar, iclaslar, görüşlər, qərar qəbul edən təşkilatların fəaliyyəti dayandırılmış və ya onlayn formaya keçirilmişdi...
- Ermənilərin dostları və himayədarları, erməni diaspor və lobbiləri bir növ iflic vəziyyətinə düşmüşdü...
- İşğalçının əsas himayədarlarından olan Fransa sarıjiletlilərin ardıcıl etiraz aksiyaları nəticəsində başını itirərək öz hayında idi...
- Erməni lobbisinin güc sahibi olduğu ABŞ növbəti prezident seçkilərindən sonra Kapitoliyaya hücumun və bu məkanda insan tələfatı ilə bağlı tarixinin böyük qalmaqalını yaşayırdı...
- Rusiya yeni sanksiyalardan boğulurdu...
- Bütün bu qarmaqarışıqlıqdan istifadəyə çalışan Paşinyan Ermənistanı isə "yeni müharibə və yeni ərazilər" xülyası ilə dayanmadan atəşkəsi pozur, Tovuz bölgəsindən hücuma keçərək ixrac boru kəmərlərini ələ keçirmək istəyirdi...

**İlham Əliyev hazırlığı, qətiyyəti, iradəsi və uzaqgörənliyi ilə bu mürəkkəb situasiyanı Azərbaycanın xeyrinə məharətlə çevirməyi bacardı!**

**Əks-hücumda yaxalanan mənfur düşmən bədnam əməllərinin bədəlini ödəməli oldu!**

## XALQ ÖZ RƏHBƏRİNİ BELƏ TANIYIR

Allah-təala İlham Əliyevdən heç nəyi əsirgəməyib!

- Dahi şəxsiyyətin ailəsində dünyaya göz açıb.
- Dünyanın ən həlim, mehriban, fədakar anasının qucağında böyüyüb.
- Mükəmməl təhsil alıb, bir neçə dili ana dili qədər dərindən bilir.
- Böyük xarizma sahibidir.
- Dərin ağıla və zəkaya malikdir.
- Əsl Azərbaycan kişilərinə xas boy-buxunu, yaraşığı var.
- Özünə əsl Azərbaycan xanımını ömür-gün yoldaşı seçməklə eyni zamanda dost və sirdaş da qazanıb.
- Həddindən çox ciddidir, nadir hallarda gülür.
- Böyük fiziki gücə, yüksək enerjiyə, yorulmadan işləmək qabiliyyətinə malikdir.
- Qeyri-adi nitq sahibidir: istənilən mövzuda saatlarla, heç bir qeydə baxmadan zəruri və unikal misalları gətirməklə sinədəftər, dəmir məntiqə söykənən çıxışlar edə bilir.
- Müdrikdir, uzaqgörəndir, unikal yaddaş sahibidir, tərəf-müqabilini istənilən anda mat qoyan faktlar, arqumentlər səsləndirməyi bacarır.
- Hirsləndə qəzəbini boğub gizlətməyi, qeyri-adi gedişlərlə tərəf-müqabilindən ustalıqla "qisas" almağı bacarır.
- Məqsədə çatmaq yolunda illərlə, inadla çalışmaq, qeyri-adi, dəqiqliklə hesablanmış addımlar atmaq ustasıdır.
- Böyük ürək, geniş qəlb, yüksək səxavət sahibidir.
- Dövlətin və xalqın maraqlarını daim uca tutar, bu məsələdə heç zaman, heç kəsə güzəştə getməz.
- Şəhid analarını, körpə balalarını öpüb bağrına basanda gözlərinin yaşardığını dəfələrlə görmüşük.
- Dəmir yumruğunu düşmənə silkələyərək başını əzdiyinin şahidinə çevrilmişik.
- İndiki çağında 20 kiloluq qantelləri oynatmağını heyrətlə izləmişik.
- "Nooldu, Paşinyan!" söyləyərək ürəklə gülməsindən ürəkdən zövq almışıq.

**Budur Azərbaycan xalqının sevdiyi İlham Əliyev!**

**Budur Qarabağın xilaskarı İlham Əliyev!**

**Budur dünyanın sayılıb seçilən rəhbərlərindən biri olan Azərbaycan Prezidenti cənab İlham Əliyev!**

## İLHAM ƏLİYEV AZƏRBAYCANIN RADİKAL MÜXALİFƏTİNİN SATQIN VƏ XƏYANƏTKAR MAHİYYƏTİNİ DƏ İFŞA ETDİ

Birinci Qarabağ müharibəsi dövründə yaşayanlar Şuşanın, Laçın və Kəlbəcərin düşmənə verilməsində, Xocalının müdafiəsiz qoyularaq soyqırımına uğradılmasında, Ağdamın süqutunda AXC-Müsavat cütlüyünün xəyanətkar əməllərini yaxşı xatırlayırlar.

Ə.Vəzirovun xain hərəkətlərindən, A.Mütəllibovun qorxaqlığından və qətiyyətsizliyindən istifadə edən cəbhəçilər piket, tətil və mitinqlər yolu ilə ölkəni idarəolunmaz vəziyyətə gətirdilər, sonra parlamentdə çevriliş törədərək zor gücünə hakimiyyəti ələ aldılar.

AXC-Müsavat cütlüyünün təyin etdiyi müdafiə naziri Rəhim Qazıyevin xəyanətkar olması məhkəmə qaydasında sübuta yetirilmişdir. Onun Şuşada özünə qarşı qurdurduğu "sui-qəsd" oyunu, əslində, şəhərin müdafiəsinin pozulmasına, bu müdafiə sahəsində mühüm işlər görən vətənpərvər və nüfuzlu insanların cismən məhv edilərək qala şəhərin asan yolla, döyüşsüz düşmənə verilməsinə xidmət edirdi.

Laçının müdafiəsiz qoyulması, hətta düşmən hücumunun qarşısını almalı olan zirehli texnika və canlı qüvvənin Bakıya gətirilərək parlament çevrilişinə cəlb edilməsi dövlətə və xalqa qarşı xəyanətin bariz nümunəsidir!

AXC-Müsavat cütlüyü nəinki Kəlbəcərin müdafiəsini təşkil etmədi, heç dinc əhalinin sağ-salamat qırğından çıxarılmasına belə yardım göstərmədi.

Sonra məcburən ev-eşiyini tərk edənlərin qəzəbindən qorxaraq onların Bakıya buraxılmasını da qadağan etdi.

**Bu səriştəsizlər, xəyanətkarlar iqtidarda olduqları müddətdə kolxoz və sovxozların mal-qarasını, fabrik və zavodların anbarlarındakı məhsulları (o dövrdə özəlləşdirmə aparılmamışdı), şərab emalı müəssisələrinin çaxır və konyaklarını satıb ciblərini doldurmaqla, rüşvətxorluq və korrupsiya ilə məşğul idilər.**

1993-cü ildə AXC-Müsavat cütlüyünün "fəaliyyətlərinə" ictimai baxışa çevrilən məşhur "may müşavirəsi"ndə Ə.Elçibəy, Əli Kərimli, hüquq-mühafizə orqanlarına və gömrüyə rəhbərlik edənlər öz biabırçı əməllərini konkret faktlarla özləri ifşa etməklə xalqa çatdırdılar.

Prezident İlham Əliyev də ölkəyə rəhbərliyi dövründə radikal müxalifətin satqın əməllərini dəfələrlə ifşa edib, onların antimilli hərəkətlərinin əsl qiymətini dəqiqliklə açıb göstərib: *"O dövr bizim milli faciəmiz, milli rəzalət dövrü idi. AXC-Müsavat hakimiyyəti dünya miqyasında bəlkə də ən biabırçı hakimiyyətlərdən biri idi, bəlkə də birincisi idi. Ölkə əldən gedirdi, ölkədə vətəndaş qarşıdurması pik həddə çatmışdı, torpaqlar işğal altına düşürdü, ancaq onlar yalnız öz mənafeyini, öz maraqlarını düşünürdülər. Hakimiyyətə gəlmiş antimilli ünsürlər Azərbaycanı demək olar ki, bütün beynəlxalq tərəfdaşlardan, xarici tərəfdaşlardan təcrid etdilər və həm xarici, həm daxili siyasətdə kobud səhvlər buraxdılar və cinayətlər törətdilər".*

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı və Ordusu erməni faşizminə qarşı müharibəyə qalxanda ölkədə fəaliyyət göstərən bütün müxalifət partiyaları birgə bəyanat imzalayaraq dövlətin yanında olduqlarını, bu mübarizəyə dəstək verdiklərini bildirdilər.

*Radikal müxalifət bu sınaqlı günlərdə də xalqın maraqlarından uzaqda qaldığını, yalnız şəxsi mənafe güddüyünü göstərərək düşmənə qarşı birləşənlərin sırasına qoşulmadı.*

*Bununla özləri özlərini bir daha ifşa etdilər!*

**İlham Əliyev bütün imkan və qüvvələri səfərbərliyə alaraq Azərbaycan xalqının ən ülvi, hətta əlçatmaz görünən arzusunu şərəf və fədakarlıqla yerinə yetirdi!**

**Kimin kim olduğunu əyani şəkildə nümayiş etdirdi!**

Eyni zamanda torpaqları özləri erməniyə verərək onu geri qaytara bilməməkdə iqtidarı günahlandırmağa cəhd edən antimilli qüvvələri, "5-ci kolon" üzvlərini əliyalın qoyaraq rəzil duruma saldı!

**"Dəmir yumruğ"u ilə düşmənin belini qıran Müzəffər Ali Baş Komandan İlham Əliyev AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində işğalda olan torpaqları azad etdi!**

## "DƏMİR YUMRUĞ"UN QÜDRƏTİ

Otuz il Qarabağ torpaqlarını işğalda saxlayan mənfur düşmən 44 gündə yerlə-yeksan edildi!

**Quduran, Azərbaycan torpaqlarının əbədi olaraq özündə qalacağını düşünən düşməni rəzil günə Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u saldı!**

*Bu qüdrətli yumruq düşmənin başını ilan başı kimi əzdi!*

*Bu qüdrətli yumruq düşmənin belini çubuq kimi qırdı!*

*Bu qüdrətli yumruq düşməni müqəddəs torpaqlarımızdan iti qovan kimi qovdu!*

**Qüdrətli yumruq qüdrətli, əzəmətli şəxsiyyətlərə məxsus olur!**

**Məhz İlham Əliyev kimi siyasət və hərb nəhənglərinə!**

Təbiidir ki, "dəmir yumruq" ifadəsi məcazi mənada işlədilir.

O da təbiidir ki, bu qüdrətli yumruğun zərbələrinin nəticələri həyatda, reallıqda əyani şəkildə görünür:

- düşmənin torpaqlardan qovulmasında;
- onun ordusunun məhv edilərək qorxaqlar, fərarilər və məğlublar dəstəsinə çevrilməsində;
- bu gün hamımızın qəzəblənərək və kövrələrək getdiyimiz təmizlənmiş və təhlükəsiz azad ərazilərimizdə;
- mədəniyyət paytaxtı Şuşamızda və külli Qarabağımızda!

Bəs "Dəmir yumruğ"u yaradan amillər, onu güclü və qüdrətli edən komponentlər hansılardır?!

**Şübhəsiz, "dəmir yumruq" öz gücünü ən əvvəl sahibinin zəkasından, Vətənə qədərsiz sevgisindən, uzaqgörənliyindən, yüksək diplomatik bacarığından, misilsiz hərbi məharətindən, möhkəm və dönməz iradəsindən alır!**

"Dəmir yumruğ"un bir sıra real əsasları da mövcuddur.

*Onları nəzərdən keçirək:*

### 1. MALİYYƏ QAYNAQLARI

Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasını və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin reallaşdırılmasını təmin edən Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın gələcək inkişafının bütün istiqamətlərini də müəyyənləşdirmişdi. Xalqın məhəbbətlə "Heydər Əliyev dövlətçilik kursu" adlandırdığı bu istiqamətlərin əzm və şərəflə davamı missiyası isə cənab İlham Əliyevin üzərinə düşürdü. O, bu çətin və mürəkkəb missiyanı uğurla davam etdirmək və Ulu Öndərimizdən yarımçıq qalmış işləri möhtəşəm sonluğa çatdırmaqdan ötrü gərgin və səmərəli fəaliyyətə başladı.

**Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ilk növbədə, onun güclü iqtisadiyyatını formalaşdırmaq zəruri idi.**

Buna qədər mürəkkəb və çətin şəraitdə aparılan neft danışıqlarında əzmlə iştirak edən cənab İlham Əliyev Azərbaycan xalqının milli maraqlarının təmininə xidmət göstərən müqavilələrin, ilk növbədə, "Əsrin müqaviləsi"nin və digər iyirmiyədək sazişin bağlanmasına öz dəyərli töhfəsini verdi.

Bütün maneə və əngəllərə baxmayaraq, Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu xətti də deyilən vaxtda gerçəyə çevrildi.

*"Neft ölkələrə xoşbəxtlik də gətirə bilir, bədbəxtlik də! Mən çalışacağam ki, Azərbaycan nefti Azərbaycan xalqına yüksək rifah və xoşbəxt həyat gətirsin",* - deyən cənab İlham Əliyev bütün fəaliyyəti boyu bu prinsipinə sadiq qaldı.

Beləliklə, neft-qaz gəlirləri iqtisadiyyatın digər sahələri üçün lokomotiv rolunu oynadı!

Büdcəyə daxilolmalar artdıqca xalqın sosial rifahı yüksəldi, müstəqil dövlətimizin iqtisadi gücü və imkanları da artdı.

Bir milyon nəfərdən artıq qaçqın və məcburi köçkünün sosial müdafiəsi gücləndirildi.

Cənab İlham Əliyev *"Bir nəfər də çadır şəhərciklərində yaşayan məcburi köçkün qalmayacaqdır"* vədini dediyindən də qısa müddətdə gerçəkləşdirdi, 115 qaçqın şəhərciyi və yaşayış kompleksi tikdirərək 62 mindən artıq ailəni oraya köçürdü.

**Prezident İlham Əliyev bir an da olsun belə işğaldakı torpaqların geri qaytarılması əzmindən geri durmurdu!**

*Çoxcəhətli və çoxşaxəli fəaliyyət göstərir, inamla, addım-addım məqsədinə doğru yaxınlaşırdı:*

- Ölkənin enerji, nəqliyyat və ərzaq təhlükəsizliyi təmin edildi.
- Regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı qəbul edildi, onlar əlavələrlə birlikdə, uğurla həyata keçirildi.
- Sahibkarlığın inkişafına əlverişli şərait yaradıldı, onlara sistemli şəkildə güzəştli kreditlər verildi, digər yardımlar göstərildi.
- Qeyri-neft sektorunun, xüsusən də kənd təsərrüfatının inkişafına böyük diqqət yetirildi, dövlət tərəfindən mütəmadi subsidiyalar ayrıldı.
- Ölkənin neftdən asılılığının azaldılması üçün sistemli tədbirlər görüldü.
- Vətəndaş məmnunluğu yaradıldı, dövlət büdcəsinin həcmi ilbəil artdı.
- Hər il ordu quruculuğuna və onun ən müasir silahlarla təminatına kifayət qədər vəsait ayrıldı!

### 2. YENİ VƏTƏNPƏRVƏR GƏNCLƏR NƏSLİ YETİŞDİRİLDİ

**Biz ilk dəfə yeni vətənpərvər gənclər nəslinin hayqırtısını 2020-ci ilin iyulunda gördük.**

Hətta COVID-19 təhlükəsinə baxmayaraq, minlərlə gənc Bakının küçələrinə axışaraq Ermənistanın Tovuz istiqamətindən ölkəmizə dalbadal hücumlarına qarşı hiddətini bildirir, daim Müzəffər Ali Baş Komandan İlham Əliyevin yanında olduqlarını söyləyir, onun bir əmri ilə döyüşlərə atılaraq Qarabağı işğaldan azad edəcəklərini bəyan edirdilər!

*Az sonra 44 günlük Zəfər müharibəsi başlayanda həmin gənclər mənfur düşməni məğlub edərək vədlərini yerinə yetirdilər!*

*Qarabağı görməyən, Qarabağdan kənarda doğulan qəhrəman Azərbaycan gənci Qarabağı işğaldan qurtardı!*

**Bu gənclər nəslini də İlham Əliyev tərbiyələndirərək yetişdirmişdir.**

Bunun üçün bir neçə istiqamətdə səmərəli iş aparmışdır.

*Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılan gənclər siyasəti uğurla davam etdirilmişdir.*

Belə ki, YAP-ın gənclər təşkilatının, ölkədə fəaliyyət göstərən digər qurumların və QHT-lərin imkanlarından səmərəli istifadə olunmuş, möhkəm əqidəli və mənəviyyatlı, azərbaycançılıq ideologiyasına sadiq gənc nəsil tərbiyələndirilmişdir.

*Milli Olimpiya Komitəsinin Prezidenti kimi cənab İlham Əliyev ölkədə idmanın inkişafına mühüm töhfələr vermiş, güclü maddi-texniki baza yaratmış, Azərbaycanı beynəlxalq səviyyəli yarışların keçirildiyi məkana çevirmişdir.*

I Avropa Oyunlarının təşəbbüsçüsü və təşkilatçısı olan, IV İslam Həmrəyliyi Oyunlarını müvəffəqiyyətlə keçirən Azərbaycan artıq dünyada həm də idman dövləti kimi tanınır.

Olimpiya Oyunlarında, dünya və Avropa birinciliklərində, beynəlxalq idman yarışlarında fəal iştirak edərək yüksək yer tutan Azərbaycan gənci daim dövlət bayrağımızı ucaldaraq himnimizi səsləndirir.

**İdmançı gənclərimiz Vətən müharibəsində fədakarlıqla iştirak edərək böyük zəfərin qazanılmasına öz töhfələrini verdilər.**

*Bu gün neft kapitalının insan kapitalına çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin təşəbbüsü ilə xaricdə təhsil alaraq Vətənə qayıdan yüzlərlə gənc respublikanın iqtisadi, ictimai həyatında, Qarabağın dirçəldilməsi sahəsində fəallıq göstərirlər.*

### 3. ORDUNUN ƏN YENİ VƏ MÜASİR SİLAHLARLA TƏCHİZATI

*İ Qarabağ müharibəsindəki məğlubiyyətimizin başlıca səbəblərindən biri də vaxtında ordu yaradılmaması və onun lazımınca silahlandırılmaması idi.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev bu sahədə də ən möhtəşəm uğura imza atdı.**

Ermənistan hər iki müharibədə rus silahı ilə, həm də əksər halda pulsuz silahlandırılmışdı.

Ağıllarını itirmiş ermənilər ürəkdən inanmışdılar ki, torpağı onlar alıb, onlar işğalda saxlayır və heç zaman qaytarmayacaqlar!

Yenə eyni qaydada silah əldə edərək, 90-cı illərdə qalib gəldikləri taktika və strategiyaya güvənərək Azərbaycan tərəfinə meydan oxuyurdular.

**Bütün bunlardan cənab İlham Əliyev yaxşı məlumatlı idi.**

**Odur ki, yeni müharibəyə, bu dəfə Azərbaycanı qalib edəcək və işğalçıları torpaqlardan qısa müddətdə qovacaq zəfər müharibəsinə hazırlaşırdı.**

Həm də tam məxfi şəkildə!

*Eyni zamanda açıq və mütəmadi olaraq ciddi xəbərdarlıqlar etməklə:*

- Əgər məsələ sülh yolu ilə həll olunmasa, o zaman Azərbaycan öz torpaqlarını hərbi vasitələrlə azad edəcəkdir!
- Azərbaycan heç zaman öz ərazisində ikinci Ermənistan dövləti yaradılmasına yol verməyəcəkdir!

**İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi bu sahədə də həlledici oldu!**

Müzəffər Ali Baş Komandanımız:

- XXI əsrin müharibəsinə hazırlaşdı!
- Ordusunu ən yeni silahlarla silahlandırdı!
- Qabaqcıl ölkələrlə dostluq əlaqələri quraraq ən yeni texnologiyalara əsaslanan, hələ indiyədək hərb meydanlarında geniş şəkildə tətbiq olunmamış silahlar əldə etdi!
- Dünyanın qabaqcıl hərbi məktəblərində Azərbaycan övladlarını oxutduraraq yeni taktikaya uyğun gələn, həmin silahları məharətlə işlədəcək hərbçilər yetişdirdi!
- Fasiləsiz hərbi təlimlər keçirərək əldə edilən nəzəri bilikləri peşə vərdişləri ilə tamamladıb inkişaf etdirdi!
- Hərbçilərdə mənəvi zənginliyin, vətənpərvərliyin, ruh yüksəkliyinin, habelə sonadək döyüşərək düşmənə qalib gəlməyə lazım olan digər keyfiyyətlərin tərbiyəsinə xüsusi diqqət yetirdi!

**İlham Əliyevin sərkərdəliyi ilə II Qarabağ müharibəsinə başlayan Azərbaycan Ordusu bütün parametrlər üzrə ən yeni, ən müasir, ən mükəmməl taktiki üsullarla və silahlarla döyüşəcək ordu idi!**

**Əslində, bu ordu İlham Əliyev ordusu idi!**

### 4. ÖRNƏYƏ ÇEVRİLƏN MÜKƏMMƏL TAKTİKA VƏ STRATEGİYA

Otuz il ərzində Ermənistan dostlarının köməyi ilə altıqat müdafiə xətti quraraq Azərbaycanın öz torpaqlarını geri almaq üçün hücuma keçəcəyi günü gözləyirdi!

Lovğalıqla "Ohanyan xətti" adlandırılan bu müdafiə sistemi atəş nöqtələrindən, səngərlərdən, tikanlı məftillərdən, mina sahələrindən, betonlaşdırılmış bunkerlərdən, müasir müşahidə və izləmə optik qurğularından, habelə müxtəlif maneələrdən ibarət idi!

(Bu gün Bakıdakı Hərbi Qənimətlər Parkında həmin müdafiə xətlərinin elementlərini və nəticəsini əyani şəkildə görmək mümkündür).

Ermənilər yeni müharibəyə "öz ağılları" ilə hazırlaşmışdılar və hücumu Qarabağın mərkəzindən, Ağdam istiqamətindən gözləyirdilər!

Sonadək də gözlədilər!

*Gözləyə-gözləyə tələyə düşərək Ağdam, Laçın və Kəlbəcərdəki müdafiə mövqelərini bir güllə atmadan Azərbaycan Ordusuna təhvil verdilər!*

**Bu, İlham Əliyevin hərbi məharəti, onun tətbiq etdiyi yeni silahlar, yeni strategiya və taktika sayəsində mümkün oldu!**

Əbəs deyil ki, bu gün başda ABŞ, NATO olmaqla, hamı bu taktika və strategiyanı öyrənir, onu tətbiq etməkdən ötrü öz ordusunda islahatlar aparır.

### 5. MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN - XİLASKAR

Prezident İlham Əliyevin 44 günlük zəfər savaşında möhtəşəm qələbəsi barədə çox deyilib və yazılıb!

Hələ bundan sonra da bu tarixi qələbəni vəsf edən çoxsaylı əsərlər işıq üzü görəcəkdir.

Xalqımızı qələbəyə çatdıran məqamları bir daha diqqətə çəkirik:

- Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyev pilotsuz uçuş aparatlarını hücum və kəşfiyyat sahəsində geniş tətbiq edərək bu vasitələrin bütün imkanlarını tam parlaqlığı ilə düşmənə və dünyaya nümayiş etdirdi;
- AN-2 - "Kukuruznik" təyyarələrini yeni məzmunda tətbiq etdirərək düşmənin ən müasir və ən etibarlı hava hücumundan müdafiə sistemlərini aşkara çıxarmaqla zərərsizləşdirdi, yeni geniş hücuma şərait yaratdı;
- Gözlənilən hücum istiqamətlərində düşmənin böyük həcmdə canlı qüvvəsini və silahlarını saxladaraq gözlənilməyən yerlərdən sürətli və qəfil hücumlarla ağır zərbələr endirdi;
- Hərbi əməliyyatlar zamanı diplomatiya sahəsində də fəallıq göstərərək istədiyinə nail olmayınca - düşmən ordusunun Azərbaycan ərazisindən çıxarılması qrafiki təqdim edilməyincə hərbi əməliyyatları dayandırmadı;
- Dünya erməniliyinin maliyyəsi ilə informasiya müharibəsinə qoşulan KİV-ə qarşı əzmlə döyüşərək hamısına qalib gəldi, Azərbaycan həqiqətlərini bir daha dünyaya çatdırdı, feyk xəbərləri ifşa etdi;
- Əvvəlcədən yerli şəraitə uyğun məkanlarda təlim keçirilərək mükəmməl şəkildə hazırlanan xüsusi təyinatlıların qüvvəsindən, şücaət və qəhrəmanlığından istifadə etməklə az qala yalın əllə Şuşanı düşməndən aldı!
- Əslində, Müzəffər Ali Baş Komandan İlham Əliyev AXC-Müsavat cütlüyünün xəyanət əməlləri nəticəsində düşmənə verilən qədim Şuşanı qeyri-adi şücaətlə geri qaytardı, Azərbaycanın mədəniyyət paytaxtına çevirdi!
- Xalqımızın xilaskar oğlu cənab İlham Əliyev düşməni məhv edib ərazilərimizi geri qaytarmaqla uzun illər ərzində erməni əlində qalan torpaqları işğaldan, eləcə də yüz minlərlə insanı "məcburi köçkün" adından qurtardı!

Bu gün bəzi erməni siyasətçiləri, generalları hərdən papulistcəsinə başlarından böyük danışsalar da, içlərində Azərbaycana bütün parametrlər üzrə məğlub olduqlarını yaxşı bilirlər!

**Erməni əsgəri isə həm də mənəvi və psixoloji cəhətdən tar-mar edilib!**

**Heç vaxt Azərbaycan əsgərinin qələbə hayqırtısı və dron uçuşunun səsi onun qulaqlarından çəkilməyəcək!**

**Döyüş başlanan kimi daim bir gözü göydə qalacaq, başını soxmağa deşik axtaracaq.**

Bunu arvad paltarı geyinib qrimlənərək Qarabağdan qaçan ermənilər də sübut edir!

Bunu İrəvanda avtobuslara mindirilərək aldadılıb Qarabağa gətirilən həmin hərbçilərin valideynlərinin yol kəsmələri, övladlarını maşınlardan düşürüb geri qaytarmaları da göstərir.

Bunu barəsində fərari kimi cinayət işi açılan erməni ordusunun əsgərlərinin qorxaqlığı da sübut edir!

Bunu indiyədək Azərbaycana məxsus ərazilərdən hələ də yığılan öldürülmüş erməni əsgərlərinin qalıqları da təsdiq edir.

Bəlkə də erməni generalları varlanmaq üçün yenidən Azərbaycanla müharibə etmək fikrinə düşər.

Amma erməni əsgər və zabiti onu real ölüm gözlədiyi Azərbaycan ərazisinə keçərək güllə atmaq həvəsinə heç zaman düşməyəcək!

**Bəli, İlham Əliyev Ermənistanı təkcə hərbi cəhətdən deyil, mənəvi-psixoloji sarıdan da darmadağın edib, onlara nəsilbənəsil unuda bilməyəcəkləri sağalmaz yara, yaddan çıxmaz zərbə vurub!**

**Əslində, İlham Əliyev dünya erməniliyini sarsıdıcı məğlubiyyətə uğradıb!**

## PUÇA ÇIXARILAN ERMƏNİ XÜLYALARI

**44 günlük Zəfər savaşında Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə torpaqları murdar ləpirlilərdən təmizləmədi!**

**Həm də erməniləri tarixi, ideoloji, hərbi cəhətdən biabırçı məğlubiyyətə uğratdı!**

- İlham Əliyev beş əsr ərzində itirilən Azərbaycan torpaqlarının bir hissəsini ilk dəfə olaraq geri qaytardı!
- İki əsr ərzində davam edən münaqişəni uğurla həll etdi!
- Dünya erməniliyinin "dənizdən-dənizə Ermənistan" xülyasını birdəfəlik yox etdi! Bu əfsanənin erməni tarixçiləri tərəfindən uydurulduğunu, tarixdə heç zaman belə dövlətin olmadığını isbata yetirdi!
- Dünyanın hər yerindən gələn KİV nümayəndələrinə, siyasi və dövlət xadimlərinə, diplomatlara, bloger və QHT təmsilçilərinə, din nümayəndələri və mədəniyyət xadimlərinə Qarabağda törədilən vandallığı, vəhşiliyi, barbarlığı və dağıntıları göstərərək ermənilərin "qədim, mədəni, məzlum" xalq olmaları barədə deyilənlərin yalan olduğunu açıb göstərdi.
- "Yenilməz erməni ordusu" mifinin də puçluğunu əyani şəkildə nümayiş etdirərək həmin ordunu məhv etdi, düşmənin belini qırdı.
- "Cəsur erməni əsgəri" anlayışına son qoydu, onların qorxaq, fərari olduqlarını, döyüşlər başlayan kimi qaçıb aradan çıxdıqlarını faktlarla sübuta yetirdi.
- "Görkəmli erməni generalları, sərkərdələri" anlayışının gülünclüyünü, əslində, erməni generalların əsgər paylarını satdıqlarını, müharibə zamanı Koçaryan, Sarkisyan və Ohanyanın qorxaqcasına qaçıb gizləndiklərini sübutlarla ortaya qoydu;
- İşğal altında qalan 7 rayondan əlavə Şuşa şəhərini və keçmiş DQMV-yə daxil olan Hadrutu, Suqovuşan qəsəbəsini, habelə Xocavənd rayonunun 60 faizini geri qaytardı;
- ATƏT-in Minsk qrupunu tarixin arxivinə, status məsələsini isə cəhənnəmə göndərdi;
- 7 iyul 2021-ci il tarixli fərmanı ilə sovet dövrünün 7 iyul 1923-cü il tarixli Azərbaycanın tərkibində bir ovuc erməniyə muxtariyyət hüququ verilməsi barədə ədalətsiz qərarını ləğv edən tarixi fərmanı imzalamaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını yaratdı. Bununla da Azərbaycan xalqının öz dədə-baba torpaqlarına qayıtmaq əzmində israrlı olduğunu bir daha nümayiş etdirdi;
- Forpost dövlətin mövcudluğu üçün Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməsinin, təslimçilik müqaviləsinin bütün şərtlərinə əməl etməsinin vacibliyini, "status", "Minsk qrupu" xülyasından əl çəkməsini, əvvəlcə bir dövlət kimi yaşaya bilməsi hayına qalmasını məsləhət gördü!

## MAHİR DİPLOMAT

**Müasir dünya İlham Əliyevi həm də mahir diplomat kimi tanıyır və qəbul edir!**

**Əslində, İlham Əliyevin ixtisası diplomatiyadır.**

*Dünyaca şöhrəti olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib.*

*Həm də təkcə bu məşhur təhsil ocağında oxumayıb.*

*Sonralar müəllim kimi çalışaraq gələcək diplomatlara dərs də deyib!*



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan



## RƏHBƏR

Bu gün də Rusiyanın tanınmış siyasi ekspertləri İlham Əliyevlə qürur duyduqlarını gizlətməyərək onu "MQİMO-nun müdavimi" - deyə iftixarla təqdim edirlər.

Şəkli təhsil ocağını bitirən, dünyanın tanınmış siyasətçiləri, dövlət xadimləri sırasına ucalan müdavimlərlə bir sırada, nümunəvi tələbə və diplomat kimi Şərəf lövhəsində saxlanılır.

Diplomatiya sahəsində məhsuldar və şərəfli bir yol da keçib.

İlk böyük sınağı "Əsrin müqaviləsi" neft kontraktının imzalanması prosesində iştirakı olub.

*Uzun sürən və çətin keçən danışıqlar prosesində Azərbaycanın milli maraqlarının qorunmasını təmin edən əlverişli müqavilənin hazırlanmasına və imzalanmasına şəxsi töhfəsini verib.*

Milli Məclisin deputatı olduğu dövrdə Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinə rəhbərlik edib, ölkəmizin maraqlarının müdafiəsində və təminində fəallıq göstərib, bu ali parlament qurumunda uğurlu fəaliyyətimizin prinsiplərini müəyyənləşdirib, təməlini qoyub.

AŞ PA-nın vitse-prezidenti seçilib.

**İlham Əliyevin diplomatik məharəti Azərbaycanın dünyada sabit, dayanıqlı, demokratik dövlət kimi tanınmasında, özünə çoxsaylı dostlar qazanmasında, maraqlar içində marağını qoruyub saxlamasında mühüm rol oynayıb.**

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu, danışıqlar vasitəsilə həlli prosesində biz dövlət başçısı İlham Əliyevi daim prinsipial, qətiyyətli, heç bir təzyiq və təhdid cəhdlərindən geri çəkilməyən, təmsil etdiyi dövlətin maraqlarını qətiyyətlə müdafiə edən döyüşkən diplomat kimi görmüşük!

**İlham Əliyevin məşhur "nəyi nə vaxt və necə etməli" prinsipi bu sahədəki fəaliyyətinin uğur və səmərəsini təmin edib.**

**İlham Əliyev daim məsələni peşəkarlıqla, elmi və faktoloji cəhətdən ustalıqla əsaslandırmağı bacarıb.**

Dünya siyasi elitası Münhen Təhlükəsizlik Konfransında İlham Əliyev və N.Paşinyanın əyani qarşılaşmasını və diskussiyasını uzun müddət xatırlayacaqdır.

Azərbaycan Prezidenti İlham Əliyev rəqibini təkcə tarixi faktlar qarşısında susmağa məcbur etmədi:

Onun ingilis dilində hıqqanaraq danışmasını, yalançılığını gülüş hədəfinə çevirdi, məharətlə ələ saldı.

Bütün dünyanın, ermənipərəstlərin gözü qarşısında!

*Söz demək üçün yüksək tribuna, əlverişli məqamı seçmək qabiliyyətindən bacarıqla istifadə edərək "Valday" Diskussiya Klubunda, MDB dövlət başçılarının Aşqabad sammitində Ermənistanın sülh danışıqlarından qaçdığını, Azərbaycan torpaqlarını işğalda əbədi saxlamaq niyyətini, "yeni müharibə, yeni ərazilər" ritorikasını konkret fakt və misallarla ifşa edərək bu xalqın miflərlə yaşadığını, faşizmə pərəstiş etdiyini, keçmiş SSRİ məkanında belə bir siyasətin yolverilməz olduğunu, habelə bu siyasətin müharibəyə apardığını göstərdi.*

Zaman və tarix İlham Əliyevin nə qədər ədalətli və uzaqgörən olduğunu sübut etdi.

**İlham Əliyevin diplomatik məharəti müharibənin davam etdiyi müddətdə Azərbaycanın sıxışdırılmasına, savaşın başlıca hədəfə çatmadan dayandırılmasına, hərbi əməliyyatların gedişinə ermənipərəst qüvvələrin burun soxmasına, ölkəmizin təklənməsinə imkan vermədi!**

**İlham Əliyevin diplomatik məharəti sərkərdə qüdrəti ilə birləşərək tarixi zəfərimizi təmin etdi!**

Məhz İlham Əliyevin diplomatik məharətinin və dünyadakı nüfuzunun nəticəsidir ki, 120 ölkənin yekdil qərarı ilə 3 il ərzində dünyada BMT-dən sonra ikinci böyük təşkilat sayılan Qoşulmama Hərəkatına sədr seçildi, sonra da sədrlik müddəti daha bir il uzadıldı.

Türk Dövlətləri Şurasına rəhbərliyin 3 il ərzində İlham Əliyevə həvalə edilməsi onun bacarıq və məharətinə verilən yüksək dəyərdir.

*İlham Əliyevin yüksək beynəlxalq nüfuzunu təsdiq edən daha bir fakt:*

*Azərbaycan Prezidenti COVİD-19-a qarşı mübarizənin əlaqələndirilməsi və gücləndirilməsi üçün BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması barədə təşəbbüs qaldırdı. Ermənistan istisna olmaqla BMT-yə üzv dövlətlər, BMT rəhbərliyi bu təşəbbüsü dəstəklədi və Baş Assambleyanın sessiyası uğurla keçdi.*

### DÜNYANIN QƏBUL ETDİYİ LİDER

SSRİ dünyadan təcrid edilmiş dövlət idi.

Özünəxas formada "dünya sosializm sistemi" yaradaraq, əslində, qapalı çərçivədə fəaliyyət göstərirdi.

Ətrafına da, həmin dövrün təbirincə desək, dəmir pərdə çəkmişdi.

SSRİ adlı super dövlətdə hər şey mərkəzdə - Moskvada hazırlanır, bütün qərar və göstərişlər Kremldən gəlirdi.

Sonra danışıqsız, müzakirəsiz yerinə yetirilirdi.

Kiçik qardaş adlanan on dörd "müttəfiq respublika"nın heç bir hüquq və səlahiyyəti yox idi.

İstənilən fikir və təşəbbüs yalnız Moskva ilə razılaşdırıldıqdan, "hə"risi alındıqdan sonra icra oluna bilərdi.

Heç bir fəaliyyət müstəqilliyindən söhbət belə gedə bilməzdi: dərhal ciddi və "rəngarəng" cəza mexanizmi işə düşərdi.

Hər bir müttəfiq respublikanın xaricə çıxışı yalnız SSRİ vasitəsilə, SSRİ Xarici İşlər Nazirliyi xətti ilə mümkün idi.

Xaricə gedənlər də yalnız Moskvanın vizasından (çoxsaylı yoxlamalardan) sonra istəyini gerçəkləşdirə bilərdi.

Belə bir vəziyyətdə hansısa azərbaycanlı ictimai-siyasi xadimin dünya səviyyəli quruma çıxışı və ona rəhbərlik etməsi mümkünsüz idi.

**Cənab İlham Əliyev dünya səviyyəli bir neçə quruma seçki yolu ilə rəhbərlik edən ilk azərbaycanlı siyasi və dövlət xadimidir!**

*İlham Əliyev dünyada sevilən, beynəlxalq səviyyəli bütün tədbirlərə dəvət edilən, fikirlərinə ehtiyac duyulan və maraqlı çıxışları, təklif və təşəbbüsləri ilə fərqlənən dövlət başçısıdır.*

*İlham Əliyev dünyanın qəbul etdiyi, sözü, əməli ilə beynəlxalq hüquqa, haqqaədalətə daim dəstək verən, rasional fəaliyyəti ilə görünən liderdir.*

Azərbaycan gərgin mübarizə şəraitində keçən seçkilərdə 155 dövlətin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasının üzvü seçildi və iclaslarına sədrlik etdi.

İclaslara sədrliyi dövründə cənab İlham Əliyev dünyanı düşündürən, narahat edən, təhlükəsizliyə təhdidlər törədən, yoxsulluğun aradan qaldırılmasına, zəif inkişaf etmiş ölkələrə dəstək olacaq bir sıra məsələlərin müzakirəyə çıxarılmasına, diqqət mərkəzinə gətirilməsinə nail oldu, səmərəli təkliflər irəli sürdü, hətta BMT-nin özündə belə islahatların vaxtının çatdığını göstərdi!

COVID-19 pandemiyası dünyanı caynağına alaraq çoxsaylı insanların tələfatına səbəb olduğu dövrdə bu bəlaya qarşı səmərəli mübarizənin təşkili üçün rəhbərlik etdiyi qurumların onlayn videokonfransını keçirdi, Ümumdünya Səhiyyə Təşkilatı ilə əlaqələri möhkəmləndirərək az inkişaf etmiş dövlətlərin maraqlarının da təmin olunmasını müzakirəyə çıxardı.

İlham Əliyev COVID-ə qarşı vaksinlərin ədalətsiz bölünməsinə, yoxsul ölkələrə cüzi şəkildə peyvəndləmə materiallarının ayrılmasına etiraz edən, bu vəziyyəti tənqid edərək ədalətsizlik kimi qiymətləndirən, habelə imkansız ölkələrə humanitar yardımlar olunmasının vacibliyini göstərərək Azərbaycandan kömək ayrılmasını təmin edən dövlət başçısıdır.

**İlham Əliyevi dünyaya sevdirən ən mühüm cəhətləri ədalət və humanizm prinsiplərini daim uca tutması, beynəlxalq hüquq normalarına hörmətlə yanaşması, qarşılıqlı etimada və bir-birilərinin maraqlarının təmininə söykənən əməkdaşlığa daim üstünlük verməsi, dünya dövlətlərinə fayda gətirən transmilli layihələri gerçəkləşdirməsi, dediyinə əməl edərək sözünün sahibi olmasıdır.**

Prezident İlham Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətlərini saymaqla qurtarmaq olmur!

- İlham Əliyev nəyə əl qoyubsa, onu qurub, yüksəldib!
- Daima mümkün olmayanı mümkün edib!
- Başladığı bütün işləri uğurla, ən yüksək səviyyədə sona çatdırıb!
- Çoxsaylı dostluq körpüləri yaradıb, sonra həmin körpüləri dövlətlərarası strateji əməkdaşlığa çevirib!
- Azərbaycanın yeni, müasir imicini formalaşdırıb və müstəqil dövlətimizi bu imicdə dünyaya tanıdıb!
- Dünyada dediyini edən, sözünün sahibi olan dövlət başçısı kimi ad qazanıb!
- Prinsipial məqamda bir addım belə qeri çəkilməyən, sonadək irəliləyərək qələbə çalan lider kimi tanınıb!

**Sonda qeyd edək ki, 44 günlük Zəfər müharibəsi və itirilmiş torpaqların qaytarılması İlham Əliyevin dövlət rəhbəri kimi fəaliyyətinin mühüm yekunlarından biridir.**

**Həm də başlıcasıdır!**

Əslində, bu möhtəşəm qələbə bütün sahələrdəki danılmaz uğurlar sayəsində baş tutmuşdur!

### DAİM XALQLA BİRLİKDƏ

**Prezident İlham Əliyev Azərbaycana rəhbərliyə başladığı ilk günlərdən daim xalqa açıq olub, mütəmadi şəkildə ən müxtəlif qrup insanlarla görüşüb, onları dinləyib, ölkə ictimaiyyətini iqtidarın gördüyü işlərlə bağlı geniş məlumatlandırıb, hər bir Azərbaycan vətəndaşının yanında olaraq köməyini göstərib.**

Özünün irəli sürdüyü *"Hər bir dövlət məmuru xalqın xidmətçisidir! Xalqın ən böyük xidmətçisi isə mən özüməm"* tələbinə sadiq qalıb.

Cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə daim yüksək reytinqə malik olmasının, rəqiblərindən dəfələrlə çox səs toplamasının başlıca səbəblərindən biri xalqla daim təmasa girməsi, onların ehtiyac, arzu və istəklərini öyrənərək gerçəkləşdirməsi, açıq, şəffaf fəaliyyət göstərməsidir.

Azərbaycan demokratik cəmiyyət quruculuğu yolu ilə inamla irəliləyir. Demokratiyanın təməl prinsiplərindən biri mətbuat, söz və fikir azadlığıdır.

Özlərini "demokrat" sayan AXC-Müsavat cütlüyü quş yuxusu qədər çəkən iqtidarları dövründə mətbuata senzura nəzarətini ləğv etməyə qorxdu.

Çünki bilirdilər ki, o qədər səhvlər və talançılıqlar ediblər ki, o barədə mətbuatda həqiqətlər yazılsa, xalq olanları hakimiyyətdən süpürüb atar.

*Bu cəsarətli addımı da Ulu Öndər Heydər Əliyev 6 avqust 1998-ci ildə atdı.*

*Azərbaycan mətbuatını senzuranın buxovlarından azad etdi!*

*Ulu Öndər bu addımına və mətbuata qayğısına görə dəfələrlə "Jurnalistlərin dostu" mükafatına layiq görüldü.*

*Cənab İlham Əliyev də bu ənənəni davam etdirdiyindən dönə-dönə "Jurnalistlərin dostu" seçilib.*

**Bir dövlət başçısı olaraq İlham Əliyev daim jurnalistlərə açıqdır, onlarla sistemli şəkildə görüşür, bütün suallarını cavablandırır, iqtidar tərəfindən görülən və nəzərdə tutulan işlər barədə konkret faktlar əsasında məlumat verir, beynəlxalq arenada baş verən hadisələrə münasibətdə müstəqil Azərbaycanın mövqeyini açıqlayır.**

Cənab İlham Əliyevin qayğısı və səxavəti sayəsində Azərbaycan jurnalistlərinə dünyanın heç bir yerində təsadüf olunmayan kömək və yardımlar göstərilir.

*Jurnalistlərin müraciəti əsasında Prezident İlham Əliyev yüzlərlə mətbuat işçisinə dövlət hesabına tikilərək təmir olunmuş mənzil vermiş, beləliklə, xeyli qələm əhlini kirayədə yaşamaqdan, darısqal mənzillərdə qalmaqdan xilas etmişdir.*

Onun imzaladığı KİV-in İnkişafına Dövlət Dəstəyi Konsepsiyasına əsasən KİV DDF və sonra MEDİA İA yaradılmış, onlarca qəzetə, sayta mütəmadi qaydada maliyyə yardımı verilməsinə başlanmış, jurnalist yaradıcılığının stimullaşdırılması üçün çoxsaylı yaradıcılıq müsabiqələri keçirilmiş, qaliblər mükafatlandırılmışdır.

Bu qayğı indi də davam etdirilir.

**İlboyu Ali Baş Komandan İlham Əliyev hərbi hissələrdə olur, yeni şəhərciklərin açılışını edir, hərbçilərlə söhbətləşir, onları mükafatlandırır, birlikdə çay süfrəsi arxasında əyləşir.**

Prezidentimizin ən böyük diqqət yetirdiyi və daim təmasda olduğu insanlar qrupu şəhid ailələri və müharibə əlilləridir.

*Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə keçirilən bu görüşlərdə şəhid ailələri və əlillər dinlənilir, problem və ehtiyacları öyrənilir, dərhal zəruri tədbirlər görülür.*

**İndiyədək şəhid ailələrinə 10 min 500-dən çox mənzil və fərdi ev verilmiş, əlillərə 7.200 minik avtomobili təqdim edilmişdir.**

Vətən müharibəsi dövründə və sonrakı vaxtlarda hərbi hospitallarda yaralı əsgərlərə baş çəkilmiş, ehtiyacı olanlar müalicə üçün qardaş Türkiyəyə göndərilmiş, müasir protezlərlə təmin olunmuşlar.

Kürboyu yaşayış məntəqələrində sel daşqınları, Zaqatala bölgəsində, Şamaxı və Ağsuda baş verən zəlzələ dövründə cənab İlham Əliyev Azərbaycan vətəndaşını tək və arxasız qoymamışdır.

*Təbii fəlakətlərdən zərər görmüş insanlara dərhal zəruri kömək və yardımlar göstərilmiş, dövlət hesabına yeni mənzillər tikilərək və ya təmir olunaraq onlara verilmişdir.*

Hələ Vətən müharibəsindən öncəki dövrdə, eləcə də savaşın gedişində erməni vandalları faşist xislətlərinə uyğun addımlar atmış, Ağdam, Bərdə, Goranboy, Tərtər rayonlarını, Gəncə və Naftalan şəhərlərini raket və mərmi atəşinə tutaraq mülki əhali arasında çoxsaylı tələfat yaratmış, evləri, ictimai binaları və digər obyektləri dağıtmışdılar.

**Prezident İlham Əliyev erməni vəhşiliyinin nəticələrinin aradan qaldırılması üçün dərhal hadisə yerlərinə yollanmış, dəyən zərərin miqdarı və həcmi müəyyənləşdirilmiş, verilən sərəncam əsasında dövlət tərəfindən zəruri kömək və yardım göstərilmiş, həyat normal axarına qaytarılmışdır.**

Ölkə ərazisinə tez-tez baş tutan səfərləri zamanı cənab İlham Əliyevin ictimaiyyət nümayəndələri, bütün qrup insanlarla görüşməsi, açıq dialoqa girməsi də ənənəyə çevrilmişdir.

Belə görüş - söhbətlər zamanı dövlət başçısı İlham Əliyev insanların qayğı və ehtiyaclarını öyrənir, müxtəlif məsələlərlə bağlı təklif və iradlarını dinləyir, sonra onlardan çıxış edərək müvafiq sərəncamlar imzalayır, beləliklə, ölkədə vətəndaş məmnunluğuna nail olur.

**Azərbaycanın bugünkü inkişaf və yüksəlişində Prezident-xalq görüşlərinin, iqtidar-xalq birliyinin mühüm əhəmiyyəti vardır.**

### AZƏRBAYCANIN QAZANDIĞI DOSTLAR

Azərbaycanın "dünya erməniliyi" adlı böyük bir düşməni var!

Bu düşmən torpaqlarımızı əlimizdən almaq, dünyanın hər yerindən erməniləri gətirib ərazilərimizdə məskunlaşdırmaq üçün dəridən-qabıqdan çıxdı.

27 illik işğal dövründə buna müəyyən dərəcədə nail də olmuşdu.

Bu düşmən bütün vasitələrdən - pulla müxtəlif ölkələrdəki siyasiləri, parlament üzvlərini ələ almaq, seçkilərdə "erməni səsi" dəstəyini vəd etməklə ayrı-ayrı dövlət başçılarının mövqelərinə təsir göstərmək, dünya KİV-ində öz adamlarını yerləşdirmək və yalanlarını təbliğ etmək üçün korrupsiyalaşmış televiziya kanalları, qəzet və informasiya agentlikləri vasitəsilə ictimai rəyə təsir göstərmək, müxtəlif beynəlxalq təşkilatların fəaliyyətini erməni maraqlarına yönləndirmək və digər üsullardan geniş istifadə edir.

Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüququn tələbləri əsasında nizamlanmaması da dünya erməniliyinin vəsait və əməllərinin nəticəsidir.

**Cənab İlham Əliyev bu gerçəkliyi lazımınca qiymətləndirərək dünya erməniliyinin fəaliyyətini zərərsizləşdirmək və önləmək üçün vaxtında, lazımi addımlar atdı.**

İlham Əliyevin müəllifi olduğu "hücum diplomatiyası", beynəlxalq təşkilatlarda Azərbaycan təmsilçilərinin fəallaşdırılması, Azərbaycan-Türkiyə diasporunun birgə fəaliyyətinin qaydaya salınması, Azərbaycanla əməkdaşlıq quran bütün dövlətlərin ölkəmizin maraqlarını daim dəstəkləmələrinin təmini, cənab İlham Əliyevin müxtəlif vaxtlarda rəhbərlik etdiyi nüfuzlu beynəlxalq təşkilatlarda gördüyü işlər sayəsində onların daim ölkəmizin maraqlarından çıxış etməsi dünya erməniliyi üzərində möhtəşəm qələbəyə yol açdı!

Bunlar heç də Ermənistan ordusu üzərindəki qələbədən az əhəmiyyətli deyildir!

**İlham Əliyevin tutduğu ikinci yol Azərbaycana həqiqi dostlar qazandırması və onların dəstəyindən məqamında istifadə etməsidir!**

Artıq tarixə çevrilmiş bir fakt!

1992-ci ildə Kəlbəcərin işğalı zamanı o dövrdə Azərbaycana başçılıq edən Ə.Elçibəy S.Dəmirəldən mülki əhalinin işğal zonasından tələfatsız çıxarılması üçün 1-2 vertolyot ala bilmədi...

Əvvəla, o dövrkü Türkiyə təkbaşına qərar qəbul etməkdə çətinlik çəkirdi...

İkincisi, Ə.Elçibəy və S.Dəmirəl dostluğu da elə bir səviyyədə deyildi...

Bu gün Rəcəb Tayyib Ərdoğan Türkiyəsi öz maraqlarını daim təmin etməyə qadir qlobal dövlətə çevrilib.

*İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın dostluğu isə çoxdan mehriban qardaşlıq səviyyəsinə yüksəlib.*

Hər biri digərinə ən xoş və ürəkisidən şəkildə - əziz dostum, qardaşım, - deyərək müraciət edir!

**Bu dostluğun da, iki qardaş ölkə arasındakı münasibətlərin də indiki səviyyəyə yüksəlməsində Azərbaycan Prezidenti İlham Əliyevin böyük, danılmaz xidmətləri vardır!**

44 günlük Zəfər müharibəsində Türkiyə Prezidenti də, dövləti də, xalqı da birmənalı şəkildə Azərbaycanın yanında oldu, bunu dəfələrlə, dönə-dönə bəyan etdi, hər cür kömək göstərdi!

*İlham Əliyevin Azərbaycana dost etdiyi digər dövlətlər də - Pakistan, İsrail, Ukrayna, İtaliya, habelə Cənub Qaz Dəhlizinin ərazisindən keçdiyi bir çox dövlətlər daim Azərbaycanın haqq işini dəstəkləyir, hər yerdə və hərtərəfli köməklərini əsirgəmirlər.*

Müharibə dövründə BMT-nin Azərbaycanın ziyanına yeni qətnamə qəbul etməsinin qarşısını alan İlham Əliyevin rəhbəri olduğu Qoşulmama Hərəkatındakı dost ölkələr olmuşdur!

**İlham Əliyevin şəxsi keyfiyyətləri, dost qazanmaq və hər zaman dosta əl tutmaq xüsusiyyəti dövləti maraqlarının həyata keçirilməsində də öz rolunu oynayır!**

### KİÇİK MÖCÜZƏLƏRDƏN YARANAN BÖYÜK MÖCÜZƏ

Prezident İlham Əliyev həm də möcüzələr ustasıdır!

Bu, gəlişigözəl söz deyil, konkret faktlara söykənən reallıqdır!

BMT-nin Təhlükəsizlik Şurasının, ATƏT-in Minsk qrupunun və onun BMT-nin üzvü olan 3 həmsədr dövlətlərinin, beynəlxalq hüququn və beynəlxalq konvensiyaların gücünün çatmadığı, həll edə bilmədiyi Qarabağ problemini 44 gün ərzində uğurla həll etdi!

Arxasında dünya erməniliyi, ayrı-ayrı ölkələrdəki ermənipərəst qüvvələrin dayandığı Ermənistanı, otuz il ərzində pulsuz silahlandırılaraq Qarabağda möhkəmlənmiş erməni ordusunu biabırçı şəkildə məğlub etdi, onlara diplomatiya sahəsində və informasiya müharibəsində də üstün gəldi!

Müharibənin aparılması, hərbi əməliyyatların bir çoxunun çəkilərək televiziya vasitəsilə nümayiş etdirilməsi, Ermənistanın kapitulyasiya aktına qol çəkərək Ağdam, Laçın və Kəlbəcər kimi istehkam rayonlarını dinməz-söyləməz geri qaytarması əsl möcüzə idi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bu möcüzəni dünyanın gözü qarşısında yaratdı!

Dünya bunu gördü və bildi!

Türk Dövlətləri Təşkilatı qəhrəman Azərbaycan Prezidentinin bu zəfərini özünün ən yüksək mükafatına layiq görərək, onu Türk Dünyasının Ali Ordeni ilə təltif etdi!

**BU GÜN İLHAM ƏLİYEV AZƏRBAYCANI:**

- Tarixinin ən qüdrətli dövrünü yaşayır;
- Cənubi Qafqazın ən güclü dövləti və söz sahibidir;
- Torpaqlarını işğaldan azad edən qalib xalqdır;
- Dünya kosmos ailəsinin üzvüdür;
- Logistika mərkəzi, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin qovuşduğu məkandır;
- Dünyada sülhməramlı əməliyyatların fəal iştirakçısıdır;
- Beynəlxalq idman yarışlarının həvəslə keçirildiyi yer, idman dövlətidir;
- Avropanın etibarlı enerji təminatçısıdır;
- Multikultural ənənələri yaşadan tolerant ölkədir;
- Daim inkişaf edən, beynəlxalq hüququn norma və prinsiplərini heç zaman pozmayan, humanitar aksiyalarda fəallıq göstərən, müstəqil, suveren dövlətdir!

**Şanlı yubileyin mübarək, qalib Azərbaycan!**

**Bəxtiyar SADIQOV**

# Azərbaycan və Pakistan daim bir-birini dəstəkləyir

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Xanım Zobaida Cəlalın səfərinin əməkdaşlığımızın genişləndirilməsi baxımından önəmi qeyd edildi.

Dövlət başçısı bu yaxınlarda Pakistan Prezidenti ilə görüşünü məmnunluqla xatırlayaraq bu görüşün çox uğurlu olduğunu və əlaqələrimizin möhkəmlənməsi işinə töhfə verdiyini vurğuladı.

Prezident İlham Əliyev Bakıda keçiriləcək Azərbaycan-Pakistan Birgə Komissiyasının işinə toxunaraq bu tədbirin iqtisadi əməkdaşlığın genişlənməsi, ticarət dövriyyəsinin həcminin artırılması, biznes dairələri arasında əlaqələrin səviyyəsinin qaldırılması işinə xidmət edəcəyinə əminliyini ifadə etdi. Dövlət başçısı investisiya qoyuluşu üçün prioritetlərin müəyyənləşdirilməsinin zəruriliyini də vurğuladı.



Prezident İlham Əliyev Vətən müharibəsi dövründə Pakistanın Azərbaycanın ədalətli mövqeyinə verdiyi davamlı dəstəyə və qardaş mövqeyinə görə bir daha minnətdarlığını bildirdi və Azərbaycan xalqının bunu yüksək qiymətləndirdiyini vurğuladı.

Dövlət başçısı bu xüsusda qeyd etdi ki, Azərbaycan tərəfi işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma və bərpa işlərində iştirak edən xarici şirkətlər sırasında Pakistan şirkətlərini də görməkdən məmnun olardı.

Nazir Zobaida Cəlal ölkəsinin Azərbaycan ilə qardaşlıq əlaqələrini yüksək qiymətləndirdiyini vurğulayaraq bu münasibətlərin illər ərzində özünü doğrultduğunu bildirdi. O, Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Qələbənin Pakistanda bayram tədbirləri ilə qeyd edildiyini bildirərək bunu ölkələrimiz arasında olan qardaşlıq münasibətlərinin göstəricisi kimi dəyərləndirdi. Qonaq Azərbaycan-Pakistan Birgə Komissiyasının iclasının da əlaqələrimizin genişləndirilməsinə xidmət edəcəyinə əminliyini bildirdi.

Görüşdə ticarət, enerji, nəqliyyat, turizm, təhsil və hərbi-texniki sahələr də daxil olmaqla əməkdaşlıq münasibətlərinin bütün sahələr üzrə genişləndirilməsinin əhəmiyyəti vurğulandı. Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlıq formatının müxtəlif istiqamətlərdə daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Ölkələrimizin həm ikitərəfli müstəvidə, həm də beynəlxalq təşkilatlarda daim bir-birini dəstəklədikləri xüsusi qeyd olundu.

## Aşıq Ələsgərin abidəsinin ucaldılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Bakı şəhərində ustad sənətkar Aşıq Ələsgərin abidəsi ucaldılsın.
2. Bakı Şəhər İcra Hakimiyyəti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Aşıq Ələsgərin abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2021-ci il*

## Hazırda qara qutunun tədqiqi ilə bağlı peşəkar əməkdaşlar tərəfindən müvafiq tədbirlər həyata keçirilir

Xəbər verildiyi kimi, Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterinin Xızı rayonu ərazisində qəzaya uğraması nəticəsində 2 nəfərin xəsarət alması, 14 nəfərin həlak olması faktı ilə bağlı Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

İstintaqın hazırkı mərhələsində noyabrın 30-u saat 10 radələrində döyüş təlimlərinin keçirilməsi məqsədilə uçuş həyata keçirmək üçün havaya qalxmış DSX-yə məxsus Mİ-17 markalı helikopterin qəzaya uğraması faktında hər hansı kənar müdaxilənin olması istisna edilir. Hadisənin pilotun ehtiyatsızlığı, helikopterdə baş vermiş texniki nasazlıq, hava şəraiti, o cümlədən hər hansı digər səbəbdən baş verməsi ilə bağlı bütün ehtimallar istintaq tərəfindən ətraflı yoxlanılır.

AZƏRTAC xəbər verir ki, bu barədə noyabrın 30-da Baş Prokurorluqda təşkil olunan brifinqdə bu qurumun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə məlumat verib.

Qeyd olunub ki, cinayət işi üzrə Baş Prokurorluğun və Dövlət Sərhəd Xidmətinin rəhbərliyinin, eləcə də məhkəmə-tibb, məhkəmə-texniki-yanğın və məhkəmə-ballistik ekspertlərinin iştirakı ilə hadisə yerinə baxış keçirilib, o cümlədən qara qutunun götürülməsi təmin edilməklə hazırda onun tədqiqi aparılır. Eyni zamanda, Baş Prokurorluq, Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidmətinin peşəkar əməkdaşlarından ibarət istintaq qrupu yaradılmaqla zərərçəkmiş Emil Cəfərov və Ramin Ədilovun dindirilmələri təmin edilib, iş üzrə müvafiq ekspertizalar təyin olunub, zəruri sorğular verilib.

Hazırda iş üzrə intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilir. İstintaqın gedişi barədə ictimaiyyətə əlavə məlumat veriləcək. Eyni zamanda, kütləvi informasiya vasitələrinin nümayəndələri və sosial şəbəkə istifadəçilərindən dəqiqləşdirilməmiş, rəsmi mənbələrə istinad edilmədən, ajiotaj yarada biləcək məlumatların yayılmaması xahiş olunur. Bu kimi hallar baş verdikdə qanunla nəzərdə tutulmuş tədbirlər tətbiq edilməklə məsuliyyətə cəlb olunma təmin ediləcəkdir.

Brifinqdə iştirak edən Baş prokurorun birinci müavini Elçin Məmmədov media nümayəndələrinin qara qutu ilə bağlı suala cavabında deyib: "İstintaq qrupunun üzvləri tərəfindən hadisə yerinə baxış keçirilib və helikopterin düşdüyü ərazidə qara qutu aşkar edilərək müvafiq qaydada qablaşdırılıb götürülüb. Hazırda həmin sübutun tədqiqi ilə bağlı peşəkar əməkdaşlar tərəfindən müvafiq tədbirlər həyata keçirilir".

Baş prokurorun birinci müavini əlavə edib ki, helikopterin qəzaya uğraması ilə əlaqədar hazırda intensiv istintaq tədbirləri həyata keçirilir, zəruri istintaq hərəkətləri icra olunmaqdadır. Hazırda şahidlərin dindirilməsi, hadisə yerinə baxışın keçirilməsi təmin olunub. Zəruri ekspertizalar təyin edilib, meyitlərin xarici, o cümlədən daxili müayinələri həyata keçirilib. Hazırda intensiv qaydada zəruri istintaq hərəkətləri davam etdirilir.

Helikopterin qəzaya uğraması ilə bağlı ehtimal olunan ilkin səbəblər barədə sualı cavablandıran E.Məmmədov bildirib ki, ilkin səbəblərlə bağlı hazırda istintaq aparılır. İstintaqın hazırkı mərhələsində helikopterin qəzaya uğraması səbəbi kimi hər hansı müdaxilə inkar olunur. Yaradılmış istintaq qrupunun üzvləri hazırda bütün versiyaları, o cümlədən hava şəraiti, pilotun ehtiyatsız davranması və bu kimi digər səbəbləri araşdırırlar.

E.Məmmədov qeyd edib ki, istintaq qrupuna peşəkar müstəntiqlər daxil edilib. Cinayət işi Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq İdarəsinin icraatına verilib. İstintaq qrupunun rəhbəri idarənin rəis müavini Sənan Paşayevdir.

# Əlaqələndirmə Qərargahının ötən birillik fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib

Noyabrın 30-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın ötən birillik fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş növbəti iclası keçirilib.





AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan qərargahın rəhbəri Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış və milli qürurumuzun təntənəsinə çevrilmiş tarixi Zəfərin Azərbaycanın inkişafında yeni dövrün başlanğıc nöqtəsinə çevrildiyini bildirib.

Samir Nuriyev keçirilən iclasın bir il ərzində görülmüş işlərin qiymətləndirilməsi baxımından Əlaqələndirmə Qərargahı üçün xüsusi önəm kəsb etdiyini diqqətə çatdırıb.

Qərargah rəhbəri dövlət başçısının müəyyən etdiyi tapşırıqların, ötən dövr ərzində görülmüş işlərin onun tərəfindən daim diqqətdə saxlanmasının Azərbaycanın siyasi və iqtisadi potensialının işğaldan azad edilmiş ərazilərin tam dirçəlişinə hədəfləndiyinin göstəricisi olduğunu qeyd edib. Samir Nuriyev bu ərazilərin ən qısa zamanda bərpası və yenidən qurulması, bura qayıdışın tezliklə təmin edilməsi üçün həyata keçirilən tədbirlərin miqyasının və sürətinin daha da artırılmasının, qurumlararası koordinasiyanın və əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

İclasda Azərbaycan Respublikası Prezidentinin Qərargah qarşısında qoyduğu tapşırıqların icrasına dair məruzələr, həmçinin ötən bir il ərzində görülən işlər üzrə hesabatlar dinlənilib.

Bildirilib ki, bölgənin Ümumi Planının hazırlanması artıq yekun mərhələdədir, Şuşa, Ağdam, Füzuli, Cəbrayıl şəhərlərinin Baş planları dövlət başçısının müvafiq tapşırıqları əsasında hazırlanıb və təqdim edilib. Digər şəhərlərin Baş planlarının hazırlanması isə sürətlə davam etdirilir. Dövlət başçısının iştirakı ilə artıq Şuşa, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının ərazilərində salınacaq yaşayış binalarının təməli qoyulub.

İşğaldan azad edilmiş ərazilərin çoxsahəli potensialına uyğun olaraq bölgədə iqtisadi fəaliyyətin qısa zamanda bərpası istiqamətində görülmüş işlərə dair məlumat verilib. Sənaye zonalarının, istehsal obyektlərinin yaradılması və fəaliyyətinin təşkili, həmçinin bölgəyə investisiyaların cəlb edilməsi istiqamətində konkret addımlar atılıb. Ağdam Sənaye Parkının, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməli qoyulub, buraya potensial rezident və investorların cəlb edilməsi istiqamətində sahibkarlarla və dövlət qurumları ilə müvafiq iş aparılıb.

Kənd təsərrüfatı sahəsində həyata keçirilən tədbirlərlə bağlı bildirilib ki, taxıl əkini məqsədilə artıq on minlərlə hektar ərazidə şumlama işləri aparılıb, bitkiçiliyin, heyvandarlığın, arıçılığın inkişafı üçün prioritet istiqamətlər müəyyən edilib.

Nəqliyyat infrastrukturunun inkişafı istiqamətində görülən işlər çərçivəsində 2021-ci il oktyabrın 26-da istifadəyə verilmiş Füzuli Beynəlxalq Hava Limanının dünya praktikasında ən sürətli icra edilmiş infrastruktur layihələrindən biri olduğu qeyd edilib. Artıq Zəngilan Hava Limanının da uçuş-eniş zolağında ərazi minalardan təmizlənib və tikinti işləri davam edir. Laçın Hava Limanının isə yeri müəyyən edilməklə plan-sxemlər hazırlanıb və hazırda tikinti işlərinə başlanması üçün baza yaradılır.

Ötən il noyabrın 16-da təməli qoyulan "Zəfər yolu"nun tikintisi müvəffəqiyyətlə başa çatdırılıb və cari il noyabrın 7-də açılışı olub. İşğaldan azad edilmiş ərazilərdə 15 fərqli layihə üzrə 1400 kilometrdən artıq uzunluqda yolların, habelə telekommunikasiya şəbəkələrinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə işlər də sürətlə davam edir.

İclasda bölgədə elektrik enerjisinin təminatı ilə bağlı ötən il ərzində lazımi avadanlıqların quraşdırılması, yarımstansiyaların yenidən qurulması və bərpası, elektrik xətlərinin çəkilişi istiqamətində görülmüş işlər barədə məlumat verilib. Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan, Qubadlıda yarımstansiyaların tikintisinin qısa müddətdə başa çatdırılaraq istifadəyə verildiyi, digər enerji infrastrukturu obyektlərində bərpa və gücləndirmə işlərinin davam etdirildiyi vurğulanıb. Həmçinin işğaldan azad edilmiş ərazilərdə "Yaşıl enerji" zonasının tətbiq edilməsinə dair konsepsiya hazırlanıb.

Ötən dövr ərzində işğaldan azad edilmiş ərazilərdə mədəniyyət abidələrinin bərpası və turizm infrastrukturunun yenidən qurulması istiqamətində mühüm işlər görülüb. Tarix-mədəniyyət abidələrinə sistemli baxış keçirilməsi, onların qeydiyyatının aparılması istiqamətində görülən işlər yekunlaşdırılıb. Şuşa şəhərində "Xarıbülbül" və "Qarabağ" hotelləri istifadəyə verilib. Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri Şuşaya gətirilib. Görkəmli şair və dövlət xadimi Molla Pənah Vaqifin məqbərəsi, büstü, Natəvan bulağı, Bülbülün ev-muzeyi, Yuxarı Gövhər ağa məscidi qısa müddətdə bərpa edilib. Aşağı Gövhər ağa və Saatlı məscidlərinin, Mehmandarovların evinin bərpası işləri davam etdirilir. Bir sıra şəhərlərdə yeni Zəfər muzeylərinin və memorial komplekslərin təməli qoyulub.

30 ilə yaxın davam edən işğal müddətində Azərbaycan təbiəti, ətraf mühiti və təbii sərvətlərinə vurulan zərərin aradan qaldırılması, bölgənin təbii ekosisteminin, bioloji müxtəlifliyinin bərpası, qorunması və yaşıl enerji məkanlarının artırılması istiqamətində görülmüş işlərə dair məruzə dinlənilib. Azərbaycan Prezidentinin müvafiq sərəncamından irəli gələn tapşırıqlar üzrə Zəngilan rayonu ərazisində Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin bərpa edilməsi istiqamətində işlərə başlanıldığı diqqətə çatdırılıb.

İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, o cümlədən "Böyük Qayıdış" çərçivəsində həyata keçirilən tədbirlər fasiləsiz minatəmizləmə fəaliyyəti ilə müşayiət olunur. İşğaldan azad olunmuş ərazilərdə ötən bir il ərzində 20 min hektara yaxın ərazinin minalardan təmizləndiyi bildirilib.

Yekun çıxışında qərargah rəhbəri Samir Nuriyev dövlət başçısının "Döyüş meydanlarında əldə etdiyimiz tarixi Qələbə sülh və quruculuq qələbəsi ilə davam etməlidir" fikrinə istinad edərək bildirib ki, qazanılmış tarixi Zəfərin kökündə Azərbaycan Prezidentinin dövlətimizin daha da güclənməsi və inkişafı üçün uzun illər ərzində böyük əzmlə gördüyü çoxşaxəli işlərin durduğu kimi, işğaldan azad edilmiş ərazilərin yenidən dirçəldilməsi və bu ərazilərə Böyük Qayıdışın təmin edilməsi də dövlət başçısının böyük əzmkarlığı, qətiyyəti və güclü siyasi iradəsinə söykənir.

İclasda qarşıda duran vəzifələrin icrası ilə əlaqədar növbəti addımlar müəyyən olunub və müvafiq tapşırıqlar verilib.

## Türk Dövlətləri Təşkilatı helikopter qəzası ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verib

Türk Dövlətləri Təşkilatı noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterinin Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğraması ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verib.

AZƏRTAC xəbər verir ki, bu barədə təşkilatın tviter səhifəsində paylaşım edilib. Paylaşımda deyilir: "Bu gün Azərbaycanda Dövlət Sərhəd Xidmətinə aid helikopterin qəzaya uğraması xəbərini kədərlə öyrəndik. Bu faciəvi qəzada həlak olanlara Allahdan rəhmət, yaralılara şəfa diləyir, qardaş Azərbaycan xalqına və qəhrəman Silahlı Qüvvələrinə dərin hüznlə başsağlığı veririk".

## *Baş Prokurorluq:* "DSX-yə məxsus Mİ-17 markalı helikopterin qəzaya uğraması faktında hər hansı kənar müdaxilənin olması istisna edilir"

Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterinin Xızı rayonu ərazisində qəzaya uğraması nəticəsində 2 nəfərin yaralanması, 14 nəfərin isə həlak olması faktı ilə bağlı Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmaqla istintaq olunur.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, istintaqın hazırkı mərhələsində müəyyən edilib ki, noyabrın 30-u saat 10 radələrində döyüş təlimlərinin keçirilməsi məqsədilə uçuş həyata keçirmək üçün havaya qalxmış DSX-yə məxsus Mİ-17 markalı helikopterin qəzaya uğraması faktında hər hansı kənar müdaxilənin olması istisna edilir.

Hadisənin pilotun ehtiyatsızlığı, helikopterdə baş vermiş hər hansı texniki nasazlıq, hava şəraiti, o cümlədən hər hansı digər səbəbdən baş verməsi ilə bağlı bütün ehtimallar ətraflı yoxlanılır. Cinayət işi üzrə Baş Prokurorluğun və Dövlət Sərhəd Xidmətinin rəhbərliyinin, eləcə də məhkəmə-ballistik, məhkəmə-texniki-yanğın və məhkəmə-tibb ekspertlərinin iştirakı ilə hadisə yerinə baxış keçirilib, Müdafiə Nazirliyindən cəlb olunmuş mütəxəssis tərəfindən qara qutunun götürülməsi təmin edilməklə hazırda onun tədqiqi aparılır.

Eyni zamanda, Baş Prokurorluq, Hərbi Prokurorluq və DSX-nin peşəkar əməkdaşlarından ibarət istintaq qrupu tərəfindən zərərçəkmiş Emil Cəfərov və Ramin Ədilovun dindirilmələri təmin edilib, iş üzrə müvafiq ekspertizalar təyin olunub, o cümlədən zəruri sorğular verilib.

Hazırda iş üzrə intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilir. İstintaqın gedişi barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

## DSX-yə məxsusi hərbi helikopter təlim meydanında təyin olunmuş meydançaya eniş edərkən qəzaya uğrayıb

Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin (DSX) Mİ-17 tipli 20136 bort nömrəli helikopteri təlim məqsədilə Səngəçal aerodromundan saat 10:16-da havaya qalxaraq "Qaraheybət" təlim meydanı istiqamətinə uçuş edib. Helikopter saat 10:36-da təlim meydanında təyin olunmuş meydançaya eniş edərkən qəzaya uğrayıb.

AZƏRTAC xəbər verir ki, bunu Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev helikopterin qəzaya uğraması ilə əlaqədar noyabrın 30-da təşkil olunan brifinqdə məlumat verib.

Qəza nəticəsində 14 hərbi qulluqçumuzun həlak olduğunu, 2 hərbi qulluqçumuzun yaralandığını xatırladan DSX rəisi bildirib: "Həlak olmuş şəhidlərimizin valideynlərinə, yaxınlarına, qohumlarına, əzizlərinə, övladlarına dərin hüznlə başsağlığı verirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralıların hər ikisi Dövlət Sərhəd Xidmətinin hərbi hospitalındadırlar. Hər ikisi ilə telefon əlaqəm olub. Səhhətləri normaldır. Onların sağlamlığının bərpası üçün həkimlərimiz tərəfindən zəruri tədbirlər görülməkdədir".

Hadisə haqqında məruzə edilərkən dərhal müvafiq göstərişlər verdiyini vurğulayan Xidmət rəisi deyib: "Mənimlə birlikdə Dövlət Sərhəd Xidmətinin yüksək rütbəli zabitləri hadisə yerinə hərəkət etmişik. Hadisə yerini Baş Prokurorluğun, Dövlət Təhlükəsizliyi Xidmətinin, Hərbi Prokurorluğun, Daxili İşlər Nazirliyinin rəhbər vəzifəli şəxsləri ilə birlikdə ilkin müayinə etmişik. Müayinə etdikdən sonra tərəfimdən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə məruzə edilmişdir. Möhtərəm cənab Prezident tərəfindən hadisənin təfərrüatlarının daha da dəqiqləşdirilməsi, həlak olan şəhidlərimizin dəfn edilməsi, yaralanan hərbi qulluqçularımızın müalicəsi ilə əlaqədar müvafiq tapşırıqlar verilib".

General-polkovnik Elçin Quliyev məlumat verib ki, helikopteri idarə edən polkovnik Füzuli Cavadov ağır şəraitdə uçuşlara yüksək hazırlıqlı, uçuş imkanı və icazəsi olan pilotlarımızdan biridir. O, hələ Birinci Qarabağ müharibəsində döyüşlərdə iştirak edib. Helikopter, demək olar ki, yenidir və qısa müddət əvvəl onda təmir işləri aparılıb.

Hadisə ilə əlaqədar ilkin müayinə işlərinin aparıldığını və qara qutunun tapıldığını vurğulayan DSX rəisi qeyd edib: "Hazırda qara qutunun müvafiq hissələri Baş Prokurorluqdadır. Baş Prokurorluq tərəfindən dərin təhlil işləri aparıldıqdan sonra hadisənin başvermə səbəbi daha da dəqiqləşdiriləcək. Hazırda hadisənin başvermə səbəbi haqqında dəqiq söz demək mümkün deyil. Ancaq onu deyə bilərik ki, hansısa kənar təsirdən söhbət gedə bilməz".

E.Quliyev bildirib ki, Azərbaycan Respublikasının qanunvericiliyi hərbi təlimlərdə həlak olan hərbi qulluqçulara şəhid statusunun verilməsini nəzərdə tutur.

Həlak olan hərbçilərin dəfn mərasimləri ilə bağlı məlumat verən DSX rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın müvafiq tapşırıqlar verdiklərini vurğulayaraq deyib: "Dəfn mərasimləri sabah gün ərzində valideynlərlə məsləhətləşmələr aparıldıqdan sonra həyata keçiriləcək. Bu haqda müvafiq tapşırıqlar verilib. Ancaq ilkin olaraq valideynlərlə məsləhətləşməliyik".

## Dövlət Sərhəd Xidməti hərbi helikopterin qəzaya uğraması nəticəsində həlak olanların siyahısını açıqlayıb

Dövlət Sərhəd Xidmətinin (DSX) noyabrın 30-da hərbi helikopterin Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları zamanı qəzaya uğraması nəticəsində həlak olan və yaralanan hərbi qulluqçuların adlarını açıqlayıb.

AZƏRTAC DSX-nin Mətbuat mərkəzinə istinadla həlak olan və yaralanan hərbi qulluqçuların siyahısını təqdim edir:

1. polkovnik Cavadov Füzuli Əli İbram oğlu
2. polkovnik Nəzirov Emil Nəzir oğlu
3. mayor Həsənov Elmir Mircəlil oğlu
4. mayor Əhmədov Elbrus Səmrəddin oğlu
5. mayor Mayılov Emil Şahid oğlu
6. mayor Məmmədov Murad Yaşar oğlu
7. mayor Əliyev Emil Elman oğlu
8. tibb xidməti kapitanı Əhmədxanov Ceyhun Xanlar oğlu
9. kapitan Bayramlı Cavid Əhliman oğlu
10. kapitan Əliyev Xəyyam Əlixan oğlu
11. kapitan Qaraisayev Teymur Ənvər oğlu
12. leytenant Süleymanov Abdulla Telman oğlu
13. baş leytenant Nağıyev Fərid Təyyar oğlu
14. işçi Nəbiyev Elçin Fikrət oğlu.

Hadisə zamanı polkovnik-leytenant Cəfərov Emil Məmməd oğlu və kapitan Ədilov Ramin Ramiz oğlu yaralanıblar. Dövlət Sərhəd Xidmətinin rəhbərliyi qəza nəticəsində həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və yaralıların tezliklə sağalmasını arzu edir.

# Milli Məclisdə narkomaniya ilə mübarizəyə dair dinləmə keçirilib



Noyabrın 30-da Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi və Səhiyyə komitəsinin "Narkomaniya ilə mübarizə ailə sağlamlığının təminatıdır" mövzusunda birgə dinləməsi keçirilib.

AZƏRTAC xəbər verir ki, dinləməni giriş sözü ilə açan Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın gənclər və idman siyasətinə, ailə institutuna göstərdikləri xüsusi diqqət və qayğıdan danışıb. A.Əliyev Azərbaycan gənclərinin, ailələrinin mənəvi-psixoloji və fiziki sağlamlıqlarının yüksək səviyyədə olduğunu qeyd edərək cəmiyyətdə mövcud olan narkomaniya problemindən söz açıb. Bu qlobal bəla ilə mübarizədə bütün cəmiyyətin səfərbər olmasının vacibliyindən danışan Milli Məclis Sədrinin müavini narkomaniya ilə mübarizədə maarifləndirmə işlərinin bütün istiqamətlərdə intensivləşdirilməsi ilə bağlı təkliflərini səsləndirib.

Sonra Azərbaycan dövlətinin narkomaniyaya qarşı mübarizə ilə bağlı həyata keçirdiyi siyasətdən və yaradılmış qanunvericilik bazasından danışan Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova narkomaniya bəlasının fəsadları ilə bağlı məlumatlandırma və maarifləndirmə tədbirlərinin daha da gücləndirilməsinə, bu işlərin müasir və ideoloji formada aparılmasına ehtiyac olduğunu vurğulayıb.

Ailədə bir nəfərin narkomaniyaya düçar olmasının bütövlükdə ailənin məhvinə gətirib çıxardığına diqqət çəkən komitə sədri bu bəlanın qarşısının alınmasında mənəvi dəyərlərin təbliğinin rolunu xüsusi qeyd edib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov müzakirə olunan problemin təkcə bir ölkənin, bir sahənin deyil, qlobal problem olduğunu qeyd edib. Narkotik aludəçilərinin, narkomaniya qurbanlarının statistikasının ilbəil artmasına diqqət çəkən Əhliman Əmiraslanov problemə kompleks yanaşmanın zəruriliyindən danışıb. Məsələnin tibbi aspekti üzərində xüsusi dayanan komitə sədri narkomaniya ilə mübarizə çərçivəsində səhiyyə sahəsində aparılan işlərdən bəhs edib, bu sahədə görülməli olan tədbirlərlə bağlı təkliflər verib.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı narkomaniyanı dini-mənəvi dəyərlər aspektində təhlil edib. O, rəhbərlik etdiyi qurumun bu sahədə apardığı işlər barədə məlumat verib, mübarizə metodları ilə əlaqədar fikirlərini açıqlayıb.

Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru İslam Hümbətov narkomaniya ilə bağlı ölkəmizdəki mövcud durum, daxili işlər orqanları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində aparılan tədbirlər barədə danışıb. Bildirib ki, cari ilin 10 ayı ərzində əməliyyat-axtarış tədbirləri nəticəsində müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr müsadirə edilərək dövriyyədən çıxarılıb. Çıxışında idarə rəisi DİN-nin ictimai maarifləndirmənin ənənəvi üsulları ilə bərabər, yeni forma və metodları, o cümlədən sosial media menecment (SMM) mexanizminin tətbiqi barədə danışıb.

Dinləmədə BMT-nın Əhali Fondunun nümayəndəsi Səbinə Manafova müzakirə olunan problemlə bağlı təmsil etdiyi təşkilatın dövlət qurumları ilə sıx əməkdaşlığından söz açıb, məsələ ilə bağlı həyata keçirdikləri layihələrdən danışıb.

Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov, Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızı, Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini Jalə Əliyeva, deputatlar Sədaqət Vəliyeva, Tamam Cəfərova, Soltan Məmmədov, Nigar Arpadarai, Kamilə Əliyeva, Ramin Məmmədov, Sevil Mikayılova, Kəmaləddin Qafarov, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək narkomaniyaya qarşı mübarizədə dövlət qurumları ilə bərabər cəmiyyətin də fəal iştirakının, narkomaniyanın profilaktikası ilə bağlı işlərin geniş şəkildə təşkilinin, maarifləndirmə və təbliğat işlərinin artırılmasının vacibliyindən danışıblar, yeni metodların və yanaşmaların, xüsusən sosial şəbəkələrin imkanlarından istifadənin səmərəliliyinə diqqət çəkiblər. Onlar narkomaniya ilə bağlı statistikanın dəqiq aparılmasının, narkomanların müalicəsinin klinik protokollarının tərtibinin, yeni dərman və preparatların tətbiqinin zəruriliyini vurğulayıblar. Deputatlar qanunvericiliyin, qanunların icrası mexanizmlərinin yenidən nəzərdən keçirilməsi və digər məsələlərlə bağlı fikirlərini açıqlayıb, rəy və təkliflərini səsləndiriblər.

Dinləmədə Səhiyyə, Təhsil, Gənclər və idman, Əmək və Əhalinin Sosial Müdafiəsi, Ədliyyə nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Ombudsman Aparatının, QHT-lərin nümayəndələri çıxışlarında təmsil etdikləri sahələrdə apardıqları narkomaniya ilə mübarizə işlərindən danışıblar, qaldırılan məsələlərlə bağlı mövqelərini ifadə ediblər.

Tədbirin yekununda komitə sədrləri Əhliman Əmiraslanov və Hicran Hüseynova narkomaniya ilə mübarizənin ailə sağlamlığının təmin edilməsində önəmli yer tutduğunu vurğulayıblar, aparılmış təhlillərin, səslənən fikirlərin, irəli sürülən təkliflərin problemi birgə səylərlə aradan qaldırmaq, qarşısını almaq baxımından faydalı olacağına əminliklərini bildiriblər.

# Azərbaycanın Daxili İşlər Nazirliyi Mərkəzi Asiya Regional İnformasiya və Əlaqələndirmə Mərkəzinin ən fəal üzvlərindəndir

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov noyabrın 30-da ölkəmizdə səfərdə olan Mərkəzi Asiya Regional İnformasiya və Əlaqələndirmə Mərkəzinin (MARİƏM) direktoru, milis general-mayoru Rüstəm Mirəlizodanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Azərbaycanda narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində görülən işlərdən danışıb, bu ümummilli bəlaya qarşı birgə mübarizənin zəruriliyini vurğulayıb.

Görüşdə Regional İnformasiya və Əlaqələndirmə Mərkəzi ilə qarşılıqlı əməkdaşlığın mexanizmləri, məlumat mübadiləsi qaydaları, razılaşdırılmış əməliyyat və əməliyyat-axtarış tədbirlərinin təşkili, həyata keçirilməsi və digər məsələlər müzakirə olunub.

Yüksək qonaqpərvərliyə və aparılan səmərəli müzakirəyə görə minnətdarlığını bildirən Rüstəm Mirəlizoda Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Mərkəzi Asiya Regional İnformasiya və Əlaqələndirmə Mərkəzinin ən fəal üzvlərindən olduğunu qeyd edib. O, son illər Azərbaycanda narkotiklərin qanunsuz dövriyyəsinə qarşı aparılan kəsərli və barışmaz mübarizəni yüksək qiymətləndirib.

# Yeni Azərbaycan Partiyası sədrinin müavini Tahir Budaqov Qazaxıstanın müstəqilliyinin 30 illik yubileyinə həsr olunan tədbirdə iştirak edib



Qazaxıstanın paytaxtı Nur-Sultanda "Nur Otan" Partiyasının İctimai Siyasət İnstitutu tərəfindən təşkil edilən "Qazaxıstan siyasi-partiya sisteminin təkamülü: çağırışlar, nailiyyətlər və perspektivlər" Beynəlxalq Forumu noyabrın 30-da işini davam etdirib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan forumda Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunur.

Tahir Budaqov forum çərçivəsində keçirilən "Siyasi partiyalar vətəndaş cəmiyyəti: regional aspekt", "Siyasi proseslərdə qadın və gənclərin iştirakının genişləndirilməsi" və "Seçkilər və yeni zaman: dünya təcrübəsi və Qazaxıstan" mövzularında sessiyalarda iştirak edib.

YAP sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti, həmçinin Qazaxıstanın müstəqilliyinin 30 illik yubileyinə həsr olunan tədbirə də qatılıb. Rusiya, Çin, ABŞ, Avropa, Türkiyə və Mərkəzi Asiya da daxil olmaqla, 15 ölkədən 600-dən çox xarici və yerli ekspert, siyasi partiyaların, beynəlxalq təşkilatların və diplomatik korpusun nümayəndələri iştirak etdikləri tədbirdə seçki sistemləri, müasir seçki meyilləri, ənənəvi və alternativ ideologiyaların perspektivləri ilə bağlı müzakirələr aparılıb.

Bununla da forum işini başa çatdırıb.

# Baykal-Amur magistralında dünyanın ən mürəkkəb tuneli sayılan Severomuyski Ulu Öndər Heydər Əliyevin birbaşa rəhbərliyi ilə uğurla tikilib

Noyabrın 29-da "Rossiya-24" telekanalında Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Rusiyanın "BTS-MOST" Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Ruslan Baysarovla görüşü barədə videomaterial yayımlanıb.










AZƏRTAC xəbər verir ki, görüşdə Ümummilli Lider Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışarkən həmin dövrdə dünyanın ən mürəkkəb tuneli sayılan və xarici ölkələrin şirkətlərinin inşa edə bilmədiyi Baykal-Amur Magistralındakı (BAM) Severomuyski tunelinin Ulu Öndərin birbaşa rəhbərliyi ilə uğurla tikildiyi xüsusi olaraq vurğulanıb.

Qeyd edək ki, sovet dövrünün möcüzələrindən sayılan Baykal-Amur Magistralının tikinti prosesində ittifaqın bütün ölkələrinin vətəndaşları və millətləri yaxından iştirak edirdilər. Azərbaycan xalqının nümayəndələri də onların arasında idi.

Magistral tikilən zamanlarda Ulu Öndər Heydər Əliyevin böyük layihə ilə bağlı xidmətləri bu gün də yüksək səviyyələrdə etiraf və təqdir olunur. 1974-cü ildə tikintisinə qərar verilən layihənin icrası məqsədilə o vaxt hələ Azərbaycana rəhbərlik edən Heydər Əliyevin tapşırığı ilə minlərlə gənc BAM-a yollandı. "Rossiya-24" telekanalında Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Rusiyanın "BTS-MOST" Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Ruslan Baysarovla görüşü barədə yayımlanan videomaterialda Ulu Öndərin xidmətləri xüsusi qeyd olunub.

**Ruslan Baysarov:** Vladimir Vladimiroviç, Sizin diqqətinizi bir məqama cəlb etmək istəyirəm: on tunelin hamısı, o cümlədən ən mürəkkəb sayılan Severomuyski tuneli "Bamtonnelstroy" Səhmdar Cəmiyyətinin işçiləri tərəfindən tikilib. Əvvəlcə səkkiz tunelin olması planlaşdırılmışdı, sonra hökumətin qərarı ilə daha iki tunel əlavə edildi. Bu şəkillərdə bizim işçilər tərəfindən tikilmiş tunellər, o cümlədən Severomuyski tuneli təsvir edilir. Severomuyski tuneli dünyada ən mürəkkəb tuneldir.

**Vladimir Putin:** Severomuyski?

**Ruslan Baysarov:** Bəli. Bu, "Bamtonnelstroy" işçilərinin əzmkarlığının rəmzidir. Xarici mütəxəssislər bu tuneli tikməkdən imtina edir və bizim də imtina etməyimizi təklif edirdilər. 1984-cü ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü, Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyev tunel inşaatçılarını dəstəkləmək üçün bu tikintiyə gəlmişdi. Bildiyiniz kimi, tunelin tikintisi başa çatdırıldı və o, indiyə qədər dünyada ən mürəkkəb tuneldir, çox maraqlı obyektdir.

**Vladimir Putin:** Onun mürəkkəbliyi nədən ibarətdir?

**Ruslan Baysarov:** Orada qrunt çox ağırdır, tektonik titrəyişlər, yeraltı cərəyanlar, qaz atmaları olub. Bu, çox mürəkkəb layihədir, lakin biz onu başa çatdırdıq.

**Vladimir Putin:** Uzunluğu 45 kilometrdir, eləmi?

**Ruslan Baysarov:** Biz orada cəmi 45 kilometr tunel tikmişik, bu tunelin uzunluğu




isə 15,5 kilometrdir. Siyasi Büro əvvəlcə cəmi səkkiz tunel planlaşdırmışdı. Heydər Əliyev gələndə fəhlələr ona izah etdilər ki, əlavə iki dolanbac tunel tikilməsi də zəruridir. Heydər Əliyev "Bamtonnelstroy" işçiləri ilə birgə elə yerindəcə qərar qəbul etdi. Orada daha iki dolanbac tunel tikildi. Təsəvvür edirsinizmi? Bu, çox mürəkkəb, çox maraqlı obyektdir və indiyə qədər dünyada ən mürəkkəb obyektlərdən biri kimi qalır.

Xatırladaq ki, Ulu Öndər Heydər Əliyevin birbaşa nəzarət etdiyi BAM-ın tikintisi öz çətinliyi və ziddiyyətləri ilə seçilirdi. Miqyasına görə dünyada analoqu olmayan layihə böyük olduğu qədər də çoxsaylı problemlərə malik idi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dönəmdə tikintisi vüsət götürən magistralın 210-cu kilometrliyində azərbaycanlılar tərəfindən Ulkan stansiyası inşa edildi və onun ətrafında Ulkan qəsəbəsi salındı. Həmin qəsəbənin salınması isə birbaşa Ulu Öndərin nəzarəti altında həyata keçirilirdi. Onu da əlavə edək ki, Azərbaycandan ilk inşaat dəstəsi bu ərazilərə 1975-ci ilin əvvəlində gəlib. O vaxt Ulkan qəsəbəsinin yalnız adı var idi. İndi bu yerlər tanınmaz dərəcədə dəyişib, yeni insan məskəni salınıb. Azərbaycanlıların da iştirakı ilə tikilən və uzunluğu 209 kilometr olan dəmir yolu xəttinin çəkilişi vaxtından 2 ay əvvəl başa çatdırıldı.

Sovet cəmiyyətində BAM-ın tikintisinə münasibət də birmənalı deyildi. M. Qorbaçovun elan etdiyi yenidənqurmaya qədər onun nəhəngliyi dövlətin böyüklük və məğlubedilməzliyi kimi qəbul edilirdisə, yenidənqurma dövründə ötən illərin bütün nailiyyətlərinin kiçildilməsi prosesi başlandı. Ancaq Heydər Əliyevin ölkə sənayesinin inkişafı məqsədilə irəli sürdüyü təşəbbüslərin bu günün özündə də məmnunluqla xatırlanması Azərbaycan xalqı və onun Liderinə olan ehtiramın nümunəsi sayıla bilər. Təsadüfi deyil ki, 2008-ci il iyulun 18-də BAM-ın Anqoya stansiyasında istifadəyə verilən vağzala Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı verildi. Tədbirdə Moskva, Bakı, Severebaykalsk, İrkutsk və digər şəhərlərdən yüksəksəviyyəli qonaqların iştirakı Ulu Öndərin əziz xatirəsinə olan ehtiramın təzahürü idi.

# *Tahir BUDAQOV:* "Yeni Azərbaycan Partiyası və "Nur Otan" Partiyası arasında səmərəli və qarşılıqlı əlaqələr yaradılıb"




"Müstəqillik bütün xalqların əsas sərvətidir. Qazaxıstan 30 il ərzində sosial, iqtisadi və siyasi sistemdə islahatların aparılması baxımından böyük üstünlüklər əldə etmişdir. Qazaxıstan bu gün siyasi platformalarda iştirak edir və dövlətlərarası münasibətləri fəal şəkildə təşviq edir".

Bu sözləri Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov AZƏRTAC-a və Qazaxıstanın "Astana" telekanalına müsahibəsində deyib. Bugünkü forumun ölkələr arasında siyasi və partiyalararası əlaqələrin yaxşılaşması ilə əlamətdar olduğunu bildirən T.Budaqov tədbirdə müasir tələblər və tendensiyalar nəzərə alınmaqla partiya islahatlarının müzakirə edildiyini bildirib.

Azərbaycan ilə Qazaxıstan arasında dostluq, qardaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinə toxunan T.Budaqov qeyd edib ki, prezidentlər İlham Əliyevin və Qasım-Jomart Tokayevin şəxsi dostluq əlaqələri, məqsədyönlü siyasəti ölkələrimiz arasında dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətlərinin uğurlu inkişafını təmin edən aparıcı amillərdir.

"Ümummilli Lider Heydər Əliyev və elbası Nursultan Nazarbayev Azərbaycan-Qazaxıstan münasibətlərində etimadın yaranmasına və inkişafına, hakim Yeni Azərbaycan Partiyası və "Nur Otan" Partiyası arasında səmərəli və qarşılıqlı faydalı əlaqələrin yaradılmasına böyük töhfələr veriblər", - deyən T.Budaqov iki hakim partiyanın gənclər təşkilatları arasında yeni yaradılmış əməkdaşlığın, nəzərdə tutulan qarşılıqlı səfərlərin və birgə layihələrin həyata keçirildiyini vurğulayaraq bundan sonra da əlaqələrimizin inkişafına və dinamikasına mühüm töhfə verəcəyini qeyd edib.

# Yeni ildən 2 milyondan çox insanı əhatə edən sosial paket icra olunacaq, sosial ödənişlər artacaq

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində növbəti kollegiya iclası keçirilib. Prezident İlham Əliyevin tapşırığı ilə son illər sosial sahədə aparılan islahatları qeyd edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bu islahatların davam etdiyini bildirib.

Nazir vurğulayıb ki, dövlət başçısının imzaladığı "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncama uyğun olaraq 2022-ci ilin dövlət büdcəsinin layihəsində sosial ödənişlərin artırılması ilə bağlı islahatlar nəzərə alınıb. Əmək müqaviləsi ilə çalışanların böyük qisminin əməkhaqları artırılacaq. Bu islahat 1 milyonadək işçini əhatə edəcək. O cümlədən minumum əməkhaqqında artım olacaq. Ümumilikdə 2022-ci ilin əvvəlindən 2 milyondan çox insanı əhatə edən pensiya, müavinət, təqaüd, əməkhaqqı, sosial yardım formasında sosial ödənişlərdə artımlar olacaq.

S.Babayev bildirib ki, 2022-ci ildə minimum pensiyaların artımı ilə yanaşı, pensiyaların indeksləşdirmə əsasında artırılması da nəzərdə tutulur.

Qeyd olunub ki, ümumən pensiya islahatlarında məqsəd dövlət pensiya sisteminin davamlılığının qorunması ilə yanaşı, bu sistemdə yeni humanist yanaşmaların tətbiqi, pensiya təminatına əlçatanlığın artırılmasıdır. Son illərdə bu istiqamətdə mühüm addımlar atılıb, qarşıdakı dövrdə də davam edəcək.

İmtiyazlı kateqoriyalara aid vətəndaşların mənzillə təminatı proqramından bəhs olunub. 2021-ci il artıq şəhid ailələri, müharibə əlilləri və digər həssas kateqoriyadan olan 2500 şəxsə mənzillərin sənədi təqdim edilib. Həmçinin bu il daha 164 müharibə əlillinə dövlət büdcəsi hesabına minik avtomobili verilib.

İclasda daha 182 peşə və kvalifikasiya standartının təsdiq edilməsi qərara alınıb. Bildirilib ki, peşə və kvalifikasiya standartları işçi qüvvəsinin işəgötürənlərin tələbinə cavab verməsi və rəqabət qabiliyyətinin artırılması, peşə-ixtisas təhsili proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması məqsədilə hazırlanır. Ümumən 2021-ci ilin ötən dövründə 700-dək peşə və kvalifikasiya standartı hazırlanaraq təsdiq edilib və ilin sonuna bu rəqəmin 1000-ə çatdırılması planlaşdırılıb.

Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi sahəsində aparılan işlər diqqətə çatdırılıb. Əməyin mühafizəsi üzrə beynəlxalq standart olan İSO 45001 əsasında milli standartların hazırlanması, Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin tabeliyində Əməyin Mühafizəsi Mərkəzinin yaradılması işlərinin sürətləndirilməsi tapşırılıb.

Əlilliyin qiymətləndirilməsi işlərindən bəhs olunub. Bu ilin ötən dövründə 51 minədək şəxsə əlillik təyin edildiyi, əlilliyi olan 8 min şəxsə 40 mindən çox protez-ortopedik və digər reabilitasiya vasitəsinin verildiyi, aşağı və yuxarı ətrafları amputasiya edilmiş 164 hərbçinin 173 ən müasir 4-cü nəsil elektron protezlə təmin edildiyi qeyd olunub.

Ödənişli ictimai işlər proqramının icrası, sosial təminatın həyata keçirilməsi, sosial xidmətlər, əlilliyin qiymətləndirilməsi və reabilitasiya, övladlığagötürmə və s. sahələrdə bu ilin ötən dövründə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

# Supsa terminalından AÇG nefti yüklənmiş 1000-ci tanker yola salındı

bp-nin əməliyyatçısı olduğu Qərb İxrac Boru Kəməri (Bakı-Supsa) vasitəsilə nəql olunan "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti yüklənmiş 1000-ci tanker Qara dəniz sahilindəki Supsa terminalından yola salınıb.

İtaliyaya yola düşən "Stamos" tankerinə AÇG yataqlarından hasil olunmuş və Səngəçal terminalından başlayaraq Azərbaycan və Gürcüstan ərazisi boyunca təhlükəsiz şəkildə nəql edilmiş 650 min barel xam neft yüklənilmişdir.

bp-nin Gürcüstan üzrə vitse-prezidenti Aytən Hacıyeva demişdir: "Bakı-Supsa bp və tərəfdaşlarının həyata keçirdiyi ilkin neft layihəsinin mühüm bir hissəsidir və Gürcüstanda və regiondakı təhlükəsiz və etibarlı əməliyyatlarımızın gözəl nümunəsidir. Supsa terminalından 1000-ci tankerin yola salınması həm də bp-nin Gürcüstandakı fəaliyyətinin 25-ci ildönümünə təsadüf edən əlamətdar bir hadisədir".

bp-nin Azərbaycan-Gürcüstan-Türkiyə ixrac boru kəmərləri üzrə meneceri Eldar Qaziyev də bu mühüm hadisə ilə bağlı fikrini bildirmişdir: "İstismarda olduğu 20 ildən artıq müddətdə və 1999-cu ildə ilk tankerin yükləndiyi vaxtdan bəri Bakı-Supsa boru kəmərinin göstərdiyi əla iş icrası ilə həqiqətən fəxr edirik".

Qeyd edək ki, Bakı-Supsa boru kəməri 1999-cu ildə istismara veriləndən bəri 700 milyon bareldən çox neft nəql edib. Kəmərin hazırkı ixrac həcmi gündəlik 100 min barel təşkil edir.

***"Azərbaycan"***



# Şərtləri Bakı diktə edir

## İlham Əliyev tərəfindən Soçidə müzakirə olunan bütün məsələlərlə bağlı Azərbaycanın maraq və mənafeləri qətiyyətlə təmin olundu

*“Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və iqtisadi inkişafın təmin edilməsi naminə 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatların bütün müddəalarının bundan sonra ardıcıl surətdə yerinə yetirilməsinə və dönmədən riayət olunmasına tərəfdar olduğumuzu təsdiq edik...”, - deyə Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanan bəyanatda bildirilir.*

Bəli, Azərbaycanın 44 günlük müharibədə düşmən üzərində hərbi, daha sonra 9 noyabr və 2021-ci il 11 yanvar bəyanatları ilə diplomatik müstəvidə qazandığı qələbələr Soçi bəyanatında da möhkəmləndi. Çünki Soçi bəyanatında əks olunanlar Azərbaycan tərəfinin daim tərəfdaş olduğu, bəyan və diktə etdiyi müddəalardır, mahiyyət etibarilə dövlətimizin növbəti siyasi-diplomatik qələbəsinin sənədli faktıdır.

Hərb meydanında Azərbaycanın qarşısında duruş gətirə bilməyən işğalçı Ermənistan acı aqibətini anlayaraq ötən ilin noyabrında kapitulyasiya aktına imza atmışdı və elə bu ilin 11 yanvarında ölkəmizin irəli sürdüyü bütün müddəaları qəbul etmişdi.

### Azərbaycan maksimal konstruktivlik nümayiş etdirir

O da vurğulanmalı vacib məqamdır ki, Azərbaycan ötən ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatdan sonra müharibənin fəsadlarının aradan qaldırılması və kommunikasiyaların açılması məsələlərində maksimal konstruktivlik nümayiş etdirib, lazım olan bütün addımları atıb. Eyni zamanda Azərbaycan dəfələrlə rəsmi şəkildə iki dövlət arasında sərhədlərin təxirəsalınmaz delimitasiyasının vacibliyini bəyan edib. Azərbaycan qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaq və gələcəkdə qonşu kimi yaşamağa təşviq etmək üçün Ermənistana sülh razılaşması üzərində işə başlamağı təklif edib.

Lakin Ermənistan ötən bu müddət ərzində öhdəliyinə götürdüyü və qeyd-şərtsiz əməl etməli olduğu müddəaları yubatmağa, pozmağa yönəlik təxribat xarakterli əməllər törətdi. Bütün dünya bir daha Ermənistanın 44 günlük Vətən müharibəsindəki məğlubiyyəti ilə barışmaqda çətinlik çəkdiyinin və buna görə də Azərbaycana qarşı təxribatlara əl atdığının şahidi oldu. Amma bu dəfə də Azərbaycanın “dəmir yumruğ”unu dadaraq yerinə otuzduruldu və Ermənistan bir daha unutmayacağı şəkildə anladı ki, əl atdığı bütün təxribatlarının qarşısı Azərbaycan ordusu tərəfindən qətiyyətlə alınacaq.

Soçi görüşü isə Ermənistanın məğlubiyyətinin bir daha etirafının və bölgədə yaranmış yeni reallıqlarla barışmaqdan başqa çıxış yolu olmadığının nümayişi oldu. Paşinyan da Soçi görüşünün yekunu olaraq keçirilən mətbuat konfransında söylədi ki, Ermənistan xalqından mandat almış hökumət region üçün dinc inkişaf erasının başlanmasına hazırdır.

### Regionda bütün nəqliyyat kommunikasiyaları açılacaq

Azərbaycan Soçi bəyanatı ilə Vətən müharibəsində qazandığı parlaq qələbəni diplomatik arenada daha da möhkəmləndirdi. Prezident İlham Əliyev Soçidə müzakirə olunan bütün məsələlərlə bağlı Azərbaycanın maraq və mənafelərini qətiyyətlə təmin etdi.

İlham Əliyev üçtərəfli görüşdə Azərbaycanın mövqeyini bir daha diqqətə çatdıraraq söylədi ki, Ermənistan ilə Azərbaycan arasında sərhəd delimitasiya edilməyib: “Buna görə biz dəfələrlə açıq bildirmişik ki, delimitasiya prosesinə təxirə salınmadan başlamağa hazırıq. Üstəlik, biz Ermənistan tərəfinə açıq təklif etmişik ki, qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımaq və gələcəkdə qonşu kimi yaşamağa təşviq etmək üçün sülh müqaviləsi üzərində işə başlayaq”.

Rusiya Prezidenti Vladimir Putin də mətbuata bəyanatında Prezident İlham Əliyevin toxunduğu məsələlər ətrafında danışaraq, iki dövlət arasında sərhədin demarkasiyası və delimitasiyası işlərinin başlanılmasını vacib hesab etdiyini qeyd etdi.

Noyabrın 26-da Soçidə imzalanan üçtərəfli bəyanatın, həm də çox böyük iqtisadi əhəmiyyəti var. Sözügedən bəyanatda 2021-ci ilin 11 yanvar bəyanatından irəli gələn vəzifələrin icrası, yəni regionda bütün nəqliyyat kommunikasiyalarının açılmasına bütün tərəflərin qərarlı olduğu da əksini tapıb, bura Zəngəzur dəhlizi də daxildir. Reallıqdır ki, bu dəhlizin açılması sadəcə Azərbaycan deyil, bütün regionda nəqliyyat-kommunikasiya və iqtisadi canlanmaya geniş imkanlar yaradacaq.

Rusiya Prezidenti Vladimir Putin də adıçəkilən bəyanatda nəqliyyat dəhlizlərinin açılması ilə bağlı danışaraq, bunun həm dəmir yoluna, həm də avtomobil yollarına aid olduğunu xüsusi vurğuladı.

### Soçidəki üçtərəfli görüş Azərbaycan üçün müsbət və əhəmiyyətli sonluqla nəticələndi

Azərbaycanın mövqeyinin qeyd-şərtsiz əks olunduğu Soçi bəyanatındakı növbəti təqdirəlayiq məsələ isə Ermənistanın daim gündəmə gətirməyə çalışdığı status, hərbi əsir və girov iddiaları ilə bağlı heç bir ifadənin yer almamasıdır. Eyni zamanda 26 noyabr bəyanatında ATƏT-in Minsk qrupunun adı çəkilmir və bu, artıq Minsk qrupunun da tarixin arxivinə gömüldüyündən xəbər verir.

Prezident İlham Əliyevin mövqeyi və irəli sürdüyü, Rusiya Prezidentinin də dəstəklədiyi məsələlərin əksini tapdığı bu bəyanata əsasən tərəflər Azərbaycan-Ermənistan sərhədində sabitlik və təhlükəsizlik səviyyəsinin artırılması üzrə addımlar atmaq və dövlət sərhədinin delimitasiyası üzrə ikitərəfli komissiyanın yaradılması barədə şərtləşdilər. Tərəflər regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə təsis edilmiş Üçtərəfli İşçi Qrupunun fəaliyyətini yüksək qiymətləndirdilər və regionun iqtisadi potensialının üzə çıxarılması məqsədilə konkret layihələrin tezliklə həyata keçirilməsinin zəruriliyini vurğuladılar.

Bu bəyanat Azərbaycan dövlətinin Ermənistana qarşı sərgilədiyi humanist siyasətin bariz göstəricisidir. 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlamaqla əslində özünü sosial-iqtisadi böhrana sürükləyən, bütün inkişaf imkanlarından, regional layihələrdən kənarda qalan Ermənistana yenə də inkişaf imkanını Azərbaycan tanıdır. Soçi bəyanatında da əksini tapdığı kimi, Ermənistana əməkdaşlıq etmək, regional inkişaf proseslərindən faydalanmaq şansı verilir. Öz növbəsində, Ermənistan bu şansı düzgün dəyərləndirərək yeni əməkdaşlıq mühitini pozacaq addımlardan çəkilməlidir. Əks təqdirdə nəticələr yenə də Ermənistan üçün çox pis olacaq.

Ümumiyyətlə, 26 noyabr Soçi bəyanatı Azərbaycan dövlətinin siyasi qətiyyətinin daha bir parlaq təntənəsi oldu. Diplomatik müstəvidə qazanılan bu qələbə ilə Azərbaycan həm də Cənubi Qafqazda əsas söz sahibi olduğunu bir daha nümayiş etdirdi.

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***



# Azərbaycanın qüdrəti beynəlxalq birlik tərəfindən də etiraf olunur

*“Azərbaycan təmsil olunduğu beynəlxalq və regional təşkilatların işində fəal iştirak edir, mühüm töhfələrini verir. Dünya dövlətləri də etibarlı tərəfdaş olaraq Azərbaycanla əməkdaşlığa xüsusi diqqət yetirirlər. Bu gün ölkəmizin dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu artmaqdadır və bu istiqamətdə nəhəng layihələr icra olunur. Azərbaycanın fəal təmsil olunduğu regional subyektlərdən biri də İqtisadi Əməkdaşlıq Təşkilatıdır”* - bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Ölkəmizin təşkilatın səmərəli fəaliyyət göstərməsində maraqlı olduğunu vurğulayan deputat qeyd edib ki, 2006-cı və 2012-ci illərdə İƏT-in Zirvə toplantıları Bakıda təşkil olunub. Bu tədbirlərdə üzv dövlətlər arasında sosial-iqtisadi və siyasi əlaqələrin əsas prinsiplərini, regional münasibətlərin perspektivlərini müəyyən edən mühüm qərarlar qəbul olunub. Həmçinin Azərbaycan üzv dövlətlərlə ticarət, investisiya, nəqliyyat, enerji və ətraf mühit sahələri üzrə də aktiv əməkdaşlıq edir.

AHİK sədri bildirib ki, noyabrın 28-də Aşqabadda keçirilən İƏT-in XV Zirvə görüşü bir sıra əhəmiyyətli məqamları ilə yaddaqalan oldu: “Tədbirdə çıxış edən Prezident İlham Əliyev üzv dövlətlərlə həm çoxtərəfli, həm də ikitərəfli müstəvidə faydalı əməkdaşlıqdan, eləcə də ölkəmizin iqtisadi potensialından bəhs edib. Aydın şəkildə görünür ki, məqsədyönlü, effektli islahatlar nəticəsində Azərbaycanda dayanıqlı iqtisadi inkişafa nail olunub. Bunu nüfuzlu beynəlxalq qurumların reytinqləri də təsdiqləyir. Bütün dünyanı bürüyən və ağır iqtisadi fəsadlar törədən pandemiya şəraitində dayanıqlı iqtisadiyyata sahib olmaq ölkəmizin iqtisadi qüdrətini göstərir”.

S.Möhbalıyevin sözlərinə görə, pandemiya ilə mübarizə şəraitində Azərbaycanın sərgilədiyi mövqe və qlobal xarakterli təklifləri, bu istiqamətdə neqativ məqamları gündəmə gətirməsi bir daha ölkəmizin etibarlı və məsuliyyətli dövlət olduğunu göstərdi: “Təkcə bunu qeyd etmək kifayət edər ki, ilk gündən Azərbaycan “peyvənd millətçiliyi”nin qəti şəkildə əleyhinə oldu, bütün ölkələr üçün bərabər imkanların təmin olunmasına çalışdı. Baxmayaraq ki, ölkəmiz peyvəndləməyə başlayan ilk ölkələrdən biridir və bu proses pulsuz həyata keçirilir”.

“Ermənistanın uzun illər davam edən işğal siyasətinin mənfi nəticələri region dövlətlərinə də təsirsiz ötüşmürdü. Bunu bölgədə Azərbaycanın yaratdığı yeni reallıqlar daha aydın göstərir. Bu istiqamətdə Azərbaycanın irəli sürdüyü layihələrin miqyası göstərir ki, region dövlətləri, o cümlədən İƏT-ə üzv dövlətlər də bundan faydalanacaqlar. Həmçinin açılması şübhə doğurmayan Zəngəzur dəhlizi region dövlətləri üçün daha əhəmiyyətli görünür”, - deyə Milli Məclisin deputatı S.Möhbalıyev əlavə edib.

***Ülkər XASPOLADOVA, “Azərbaycan”***

## 1 dekabr Laçının azadlığa qovuşduğu gündür



# Hərbi qələbənin siyasi-diplomatik təntənəsi

## Bir il əvvəl işğaldan azad olunan Laçına indi yeni həyat bəxş edilir

**Dekabrın 1-i xalqımızın Vətən müharibəsindəki zəfər salnaməsinin növbəti əlamətdar günlərindən biridir.**

Ötən ilin məhz həmin tarixində üçtərəfli Bəyanatın şərtlərinə əsasən 44 günlük müharibədə darmadağın edilmiş Ermənistan ordusunun qalıqları Laçın rayonundan çıxarılmışdı. Bu gün Laçının azadlığının birinci ildönümü tamam olur.

Laçının 1992-ci ilin may ayında işğal olunması Azərbaycanda gedən hakimiyyət çəkişmələrinin, iqtidara can atan qüvvələrin milli xəyanətlərinin nəticəsi idi. Şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Şuşa, qərbdən isə Ermənistanla həmsərhəd olan Laçın strateji mövqeyi ilə ermənilərin işğalçılıq planlarının qarşısında böyük sipər idi. Ona görə də düşünmək olardı ki, Xocalıdan və Şuşadan sonra dərs götürən Azərbaycanın o zamankı rəhbərliyi güclü strateji mövqeyi olan bu rayonun işğal edilməsinə imkan verməyəcəkdir. Lakin Laçın da Xocalı və Şuşa kimi düşmənin qarşısında müdafiəsiz qaldı. Laçının işğalı ilə düşmən strateji üstünlüyünü daha da artırdı, Ermənistandan Qarabağa gedən yollara nəzarəti ələ keçirdi. Bununla da Azərbaycanın digər rayonlarının işğalı üçün münbit şərait formalaşdı. Ötən il dekabrın 1-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bu barədə demişdi: “Laçın rayonunun işğal altına düşməsi böyük faciə idi. Mən bir daha demək istəyirəm ki, hər bir rayonun işğal altına düşməsi faciə idi. Amma Laçın rayonunun işğalı imkan verdi ki, artıq Ermənistan ilə Dağlıq Qarabağ arasında yol bağlantısı olsun. 1992-ci ilin may ayında Şuşanın işğalından bir neçə gün sonra Laçının işğal altına düşməsi böyük itkimiz idi”.

Ermənilər strateji mövqeyi olan Laçını danışıqlar yolu ilə azad etmək fikrində deyildilər və bunun üçün Azərbaycana qəbulolunmaz şərtlər irəli sürürdülər, hətta rayona eybəcər bir ad da uydurub qoymuşdular. Lakin Azərbaycan xalqı inanırdı ki, işğal altındakı bütün torpaqlarımız, o cümlədən Laçın da işğaldan azad ediləcək. Ötən il sentyabrın 27-də başlanan Vətən müharibəsi xalqımızın ən böyük arzusunun həyata keçməsi ilə əlamətdar oldu. Müharibə günlərində şəhər və rayonlarımız işğaldan azad olunduqca azadlığın tezliklə Laçına da çatacağına əminlik yaranırdı. Özü də nəinki laçınlılar, bütün xalqımız Laçının azad olunması müjdəsini gözləyirdi. 2020-ci il noyabr ayının 9-da Ali Baş Komandan İlham Əliyev özünün “Tviter” hesabında Laçının Güləbird, Səfiyan və Türklər kəndlərinin işğaldan azad olunduğunu bəyan etdi. Müzəffər Ordumuzun düşməni darmadağın edərək Laçının cənub ərazilərinə gəlib çıxması göstərirdi ki, rayonun tam azad olunacağı gün uzaqda deyil.

Şuşanın azad edilməsindən sonra Ermənistanın hakimiyyət orqanları dərk etdilər ki, onların Azərbaycan Prezidenti İlham Əliyevin şərtlərini qəbul etməkdən başqa yolları yoxdur. Ötən il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanat düşmənin məğlubiyyətinin hüquqi-siyasi təsdiqi oldu. Bəyanata əsasən bir güllə belə atılmadan 2020-ci il noyabr ayının 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın işğaldan azad edildi. Bu, Ali Baş Komandan İlham Əliyevin tarixi siyasi-diplomatik qələbəsi kimi xalqımızın zəfər salnaməsinə həkk olundu. Laçının azad olunması Vətən müharibəsindəki qələbənin siyasi-diplomatik təntənəsi idi.

Hazırda işğaldan azad edilmiş bütün ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işləri aparılır. Laçının bərpası, sakinlərinin öz doğma torpaqlarına qayıtmaları dövlət başçısının diqqət mərkəzindədir. Böyük qayıdışın ilk addımlarından olan infrastrukturların bərpası Laçında da sürətlə həyata keçirilməkdədir. Təsadüfi deyil ki, işğaldan azad olunan ərazilərdə başa çatdırılan ilk infrastruktur layihələrindən biri Laçının Güləbird kəndindəki su elektrik stansiyasıdır.

Prezident İlham Əliyevin sərəncamına əsasən 72,8 kilometr uzunluğunda Kəlbəcər-Laçın avtomobil yolu inşa edilir. Laçında beynəlxalq hava limanının inşası isə bütün bölgənin beynəlxalq statusunu artıracaq, gələcək sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasının böyüklüyünü göstərir.

Laçını azad edən Prezident İlham Əliyev ona yeni həyat bəxş edir. Bütün azad olunmuş rayonlarımız, o cümlədən Laçın qısa müddətdə yenidən qurulacaq, keçmiş məcburi köçkünlər doğma el-obalarına qayıdacaqlar. Azərbaycanın bu dilbər rayonu tezliklə tarixi şöhrətini bərpa edəcək.

***Müşfiq MƏMMƏDLİ, Milli Məclisin deputatı***

# Strateji mövqeyə malik olan bölgəmiz yeni reallıqlara uyğun inkişaf edəcək

**...Laçın da digər işğal edilmiş ərazilərimizdən biri kimi, düşmən məkrinin, çirkin siyasətin qurbanı olmuşdu: 1992-ci il mayın 18-də işğalçıların əlinə keçmişdi...**

Laçının işğalının hər ildönümlərində o yurdlarda doğulmuşların qəlbindən qara qanların necə axmasını təsəvvür etmək o qədər də çətin deyildi. Yazın gəlişi ilə dağlar yaşıl donuna bürünüb aran ellərini yaylağa haraylayanda Şuşanın arxa-dayağı, söykənəcəyi olan Laçından didərgin düşənlərin qəlbindən qara qanlar axardı.

Xalqımızın ümumi sərvəti olan dağlarımızın yağmalanması ilə dəyəri milyardlarla ölçülən təbii sərvətlərimizi daşnaklar talamışdılar. Təkcə maddi sərvətlər beşiyi deyildi Laçın. Burada minilliklərin, əsrlərin yadigarı olan maddi mədəniyyət abidələri, mənəvi sərvətlərimiz də kifayət qədər idi.

Nəhayət, bu dərdə çarə olan Qələbə Müzəffər Ali Baş Komandanımız tərəfindən çalındı: 2020-ci il dekabrın 1-də Laçın da Ermənistanın işğalından azad edildi. Bu ilin baharında dağlara, onun qalalar məskəninə, zirvələrə bahar gəldi - Qələbə sovqatlı, bayram əhvali-ruhiyyəli. Şuşada “Xarıbülbül” musiqi festivalı, Vaqif Poeziya Günləri keçirildi. Laçınlıların isə üzügeri qayıdacaq köç karvanı yol üstündədir.

Öncədən qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə infrastrukturun əsaslı şəkildə yenidən qurulması dövlət başçısının quruculuq siyasətinin prioritetlərindən biridir. Laçın və Kəlbəcərin də yenidən qurulması hər iki rayonun yollarından başladı. Kəlbəcər-Laçın yolundakı tunelin təməlini qoyduqdan sonra Laçın rayonunun Qorçu kəndi ərazisində inşasına başlanılan hava limanının da respublikanın qərb regionunun inkişafında mühüm əhəmiyyət kəsb etməsi danılmazdır.

Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə 2021-ci il fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri çərçivəsində Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə “Güləbird” Su Elektrik Stansiyasının açılışında iştirakı zamanı qeyd edildi ki, bu, tarixi və əlamətdar hadisədir. Çünki işğaldan azad olunan rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlının Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

Bu il avqustun 16-da Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarına səfər etdilər. Orada keçirilən görüşlər zamanı vurğulandı ki, Kəlbəcər və Laçın rayonları region üçün mühüm coğrafi mövqeyə malikdir, həyata keçirilən bərpa və yenidənqurma işləri strateji mövqelərimizi daha da möhkəmləndirəcək.

Müharibədən sonra ölkə rəhbərinin Laçına səfəri bir daha təsdiq etdi ki, artıq regionda yeni düzən formalaşıb. Nəinki bölgə ölkələri, eləcə də bizim coğrafiyada marağı olan dövlətlər də bu reallığı nəzərə almalıdırlar.

Həmin səfərlər onu da təsdiqlədi ki, kifayət qədər həssas olan Cənubi Qafqazda davamlı sülh və inkişafın əldə edilməsi 44 günlük savaşdan sonra qazandığımız zəfər kontekstində formalaşan reallığa uyğun kommunikasiyaların bərpası və ölkələrin qarşılıqlı ərazi bütövlüyünün tanınmasından keçəcək.

Prezident İlham Əliyev Laçına səfəri zamanı işğal dövründə Azərbaycanın təbii sərvətlərini talayan xarici şirkətlərin törətdiyi ekoloji cinayətlərə də diqqət çəkdi və onu törədənlərin məhkəmə qarşısında cavab verəcəklərini bəyan etdi. Digər tərəfdən, dövlət başçısı Laçın rayonunda, ümumiyyətlə, Şərqi Zəngəzur regionunda aparılan genişmiqyaslı bərpa işləri barədə də geniş məlumat verdi. Bu regionla müntəzəm əlaqənin təmin edilməsində mühüm rol oynayacaq iki tunelin təməli qoyuldu.

Prezident Laçın rayonunda beynəlxalq hava limanının təməlini qoyarkən bildirdi ki, pilot layihələr kimi Kəlbəcər və Laçın rayonlarının arıçılıqla və heyvandarlıqla məşğul olan sakinlərinin bura ezam olunmasının da xüsusi önəmi var: “700 kilometr yolların çəkilişi prosesi gedir və qışa qədər işin təqribən 80 faizi görüləcək. Bu da hərbi nöqteyi-nəzərdən bu bölgələrdə daha da möhkəmlənməyə imkan verəcək”.

Eyni zamanda bu səfər zamanı Prezident bir daha bəyan etdi ki, Zəngəzur və Göyçə mahalından zorla qovulan vətəndaşlarımızın tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar, biz bunu sonrakı mərhələyə saxlayırıq. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan Prezidenti strateji hədəflərə mərhələli şəkildə nail olmaq üçün aydın proqrama, müdrik siyasi uzaqgörənliyə sahibdir.

Xatırladaq ki, Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. İki və dörd hərəkət zolaqlı yol üzərində altkeçidlər və körpü inşa olunacaq. Yol üzərində ümumi uzunluğu 9450 metr olan 3 tunelin tikintisi aparılacaq: “...Bütün bu bölgənin, Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır. Azad edilmiş torpaqların investisiya proqramı tutulanda mənim göstərişimlə məhz tunellər də bu layihələrə salınmışdır, o cümlədən Şuşaya gedən yolda və burada tunellər çəkilməkdədir...”

Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa edilən hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək.

Beləliklə, azad edilmiş bölgələrin - Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların doğma yurdlarına qayıtmaları üçün yeni imkanlar açacaq.

***Məhəmməd NƏRİMANOĞLU, “Azərbaycan”***



# REGİONLAR

## İməciliklərdə 13 mindən çox ağac və kol əkilib

Ötən həftə muxtar respublikada keçirilmiş iməciliklərdə 13 mindən artıq meşə, meyvə ağacı, gül və bəzək, üzüm kolları əkilib.

AZƏRTAC xəbər verir ki, Naxçıvan şəhərində Uzunoba Su Anbarının kənarındakı 1 hektarlıq yeni bağda 650 meyvə, yaxınlıqdakı 2 hektarlıq ərazidə isə bərpa məqsədilə 800 meyvə və 100 meşə ağacı, Naxçıvan-Sədərək magistral yolunun kənarlarındakı yaşıllıq sahələrində bərpa məqsədilə 80 meyvə, 370 meşə, 70 həmişəyaşıl ağac, Naxçıvan şəhərindəki digər iməcilik ərazilərində, ümumilikdə 100 meyvə, 20 həmişəyaşıl ağac və 440 gül kolu əkilib, ahıl vətəndaşın evində təmizlik işləri aparılıb. Naxçıvan-Sədərək magistral avtomobil yolunun kənarlarında 2000 meşə ağacı, Çərçiboğan kəndindəki yeni tikilmiş sosial obyektlərin ətrafındakı 1 hektarlıq bağda 380 meyvə, Yuxarı Daşarx kəndindəki 5 hektarlıq bağda isə bərpa məqsədilə 300 meyvə ağacı əkilib.

Babək rayonunun Nehrəm-Çeşməbasar yolundakı iməcilik ərazilərində bərpa məqsədilə 500 meşə, Güznüt kəndində isə 700 meyvə ağacı, Naxçıvan-Ordubad magistral yolunun kənarlarında 400 həmişəyaşıl ağac, 2 hektara yaxın ərazidə isə bərpa məqsədilə ümumilikdə 700 meyvə ağacı əkilib. Culfa rayonunda Darıdağ Arsenli Su Müalicəxanasına gedən yolun kənarlarındakı 0,4 hektarlıq ərazidə 400 meşə ağacı, 0,3 hektarlıq ərazidə isə 300 üzüm tingi torpağa basdırılıb.

Kəngərli rayonunun Qıvraq-Püsyan avtomobil yolunun kənarlarındakı 7 hektarlıq ərazidə bərpa məqsədilə 1200 meyvə və 300 meşə ağacı, Şahbuz rayonunun Sələsüz kəndindəki 0,7 hektarlıq yeni salınmış bağda 550 meyvə ağacı və 700 üzüm tingi, Heydər Əliyev Su Anbarının yaxınlığındakı 0,8 hektarlıq ərazidə bərpa məqsədilə 250 meyvə ağacı, Sədərək rayonunun Heydərabad qəsəbəsindəki 3 hektarlıq bağda isə bərpa məqsədilə 1700 meyvə ağacı əkilib.

İməciliklərdə yaşıllıqlara aqrotexniki qulluğun göstərilməsi də diqqətdə saxlanılıb.

## Qarabağın yolları Azərbaycanı yeni yüksəlişə aparır



**2021-ci il xalqımızın tarixində həm də 30 il düşmən tərəfindən sökülmüş, dağıdılmış, talan edilmiş doğma Qarabağımızın bərpasının vüsət aldığı il kimi qalacaq. Bu ilin salnaməsinə həmçinin işğaldan azad edilmiş bölgələrimizə çəkilən yeni yolların təməlinin qoyulduğu, bəzilərinin isə artıq istifadəyə verildiyi günlər də yazılacaq.**

### İşğaldan azad olunmuş ərazilərimizdə yol tikintisi sürətlə davam edir

Regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarının icrası ölkəmizin yol infrastrukturunu da müasirləşdirdi. Yollarımız şaxələnib ən ucqar kəndlərimizədək çatdı. Bir sözlə, 2004-cü ildən başlayaraq Azərbaycanda hər il 1000 kilometr yeni yol çəkildi, yaxud köhnə yollar əsaslı surətdə yenidən quruldu. Yolların vəziyyəti yenə də daim dövlətin diqqət mərkəzindədir. Çünki yolların yüksək səviyyədə olması insanların rahatlığına və ölkənin sosial-iqtisadi inkişafına xidmət edir. Təsadüfi deyil ki, Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinə də yeni yolların çəkilişindən başlandı.

Bunlardan biri Zəfər yoludur. Bu, qalib Azərbaycan Ordusunun ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən yoldur. Bu yol öz qanları ilə şanlı tarix yazan oğulların qəhrəmanlığının şahidi olduğundan həm də rəmzi məna, mənəvi önəm daşıyır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu yolu Zəfər yolu adlandırıb. "Zəfər yolu"nun inşası dövlət başçısının daimi nəzarəti altında icra olunub və qısa vaxtda həyata keçirilib.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101,5 kilometrlik Zəfər yolu Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçir. Füzuli və Şuşa şəhərləri də daxil olmaqla, bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Bu layihə öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksəksəviyyəli həyat və yaşayış standartının yaradılmasına xidmət etdiyi üçün də müstəsna əhəmiyyətə malikdir. Ali mühəndislik düşüncəsinin, yüksək texnoloji imkanların istifadə olunduğu layihə ilin bütün fəsillərində çətin relyef şəraitində, keçilməz dağ yolları yarılaraq gerşəkləşdirilib. Bu yolun tikintisi Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası, Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya bir daha göstərdi. Cari il noyabrın 7-də Prezident İlham Əliyev Şuşa şəhərinə səfər zamanı yolun açılışını etdi.

Mühüm əhəmiyyət daşıyan yollardan biri də Əhmədbəyli-Füzuli-Şuşa yoludur. Yolun texniki göstəriciləri onun uzunluğunun 81,6 kilometr olmasından, 1-ci texniki dərəcəliyindən, 4 hərəkət zolaqlılığından ibarətdir. Burada indiyədək xeyli iş görülüb. Hazırda başlanğıcından 17-ci kilometrinədək, 26-44, 51-52, 58-63, 70-71-ci kilometrlərində torpaq yatağının tikintisi, 1, 27, 34, 37 və 50-ci kilometrində körpülərin, 80-ci və 81-ci kilometrində tunellərin və alt keçidlərin tikintisi aparılır.

İşğaldan azad edilmiş ərazilərdə icra olunan yol infrastrukturu layihələrindən daha biri Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur.

Göygöl və Kəlbəcər rayonlarını birləşdirən Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun layihə uzunluğu 80,7 kilometr təşkil edir.

Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu Göygöl rayonunun Toğanalı kəndindən keçməklə çəkilir. Prezident İlham Əliyevin tapşırığına əsasən, bu yol Qarabağın inkişaf planı nəzərə alınaraq 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun inşa edilir. Yolun 16-cı kilometrindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 11,6 kilometrlik tunelin tikintisi məqsədəuyğun hesab edilib.

Bu il avqustun 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq 11,6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak etdilər. Dövlət başçısı tunelin təməlini qoydu.

Hazırda Toğanalı kəndində 7 kilometr yolda asfalt-beton örtük tikilib, 48 kilometr mövcud yol genişləndirilib və hərəkətə yararlı vəziyyətə gətirilib. Yolun 14 klometrlik hissəsinə asfalt-beton döşənib. Murovdağ tunelində qazma işləri davam etdirilir.

Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq.

Bu ilin avqust ayında Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoyarkən demişdir: "Azad edilmiş torpaqların investisiya proqramı tutulanda mənim göstərişimlə məhz tunellər də bu layihələrə salınmışdır, o cümlədən Şuşaya gedən yolda və burada tunellər çəkilməkdədir. Tunelin tikintisi həm çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda, çox böyük xərclər tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır. İnsanlar buraya qayıdandan sonra artıq Azərbaycanın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar. Həm Kəlbəcər və Laçın rayonları arasında əlaqələr möhkəmlənəcək, - Laçın rayonunda aeroportun tikintisi nəzərdə tutulur, - eyni zamanda, Kəlbəcər-Göygöl-Gəncə istiqamətində gediş-gəliş daha da rahat olacaq".

Hazırda Kəlbəcər-Laçın avtomobil yolunda torpaq yatağının tikintisi işləri 10 faiz icra olunub.

Qarabağın və Şərqi Zəngəzurun digər yollarının tikintisi də uğurla davam edir. Kəlbəcər və Laçın rayonlarının ərazisində 30 kilometrlik yol infrastrukturu qurulur. 123,8 kilometrlik Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun ayrı-ayrı hissələrində torpaq yatağının tikintisi aparılır. Torpaq işləri 17, boru və keçidlərin tikintisi 12, körpülərin inşası 10 faiz tamamlanıb. Xudafərin-Qubadlı-Laçın avtomobil yolu isə 70,4 kilometr məsafə boyu uzanacaq. Yolun Qubadlı-Laçın və Xanlıq istiqamətlərindəki bir sıra hissələrində torpaq yatağı tikilib, körpü tikintisi və topoqrafik işlər davam edir.

Tikilməkdə olan 26 kilometrlik Qubadlı-Eyvazlı, 43 kilometrlik Şükürbəyli-Cəbrayıl-Hadrut, 13 kilometrlik Füzuli-Hadrut, 45 kilometrlik Bərdə-Ağdam avtomobil yolları da bu bölgələr arasında sıx əlaqə yaradacaq. Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolu 22 kilometr qət edərək məsafə boyu yerləşən çoxsaylı yaşayış məntəqələrini birləşdirəcək.

Tezliklə bu yollar Qarabağa və Şərqi Zəngəzura yeni bir həyat gətirəcək. 30 il əvvəl bu yerləri göz yaşı ilə tərk etməyə məcbur olanlar indi sevinclə öz yurd-yuvalarına dönəcəklər. İşğaldan azad olunmuş bölgələrimizdən uzanan yollar digər şəhər və kəndlərimizin yollarına qovuşaraq Azərbaycanın daha böyük inkişaf və tərəqqisinə dəstək verəcək.

***Flora SADIQLI, "Azərbaycan"***

## Avropa İttifaqının Azərbaycandakı nümayəndəsi Lənkəranda olub

Avropa İttifaqının (Aİ) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri səfir Peter Mixalko Lənkərana səfər edib.

AZƏRTAC xəbər verir ki, səfər zamanı diplomat Lənkəran Rayon İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovla görüşüb.

İcra başçısı rayonun imkanları, həyata keçirilən işlər barədə məlumat verib. Qeyd edib ki, sahibkarlığın inkişafı üçün Lənkəranda hər bir şərait yaradılıb. Aİ ilə əməkdaşlığa toxunan T.Qaraşov söyləyib ki, bu istiqamətdə Lənkəranda böyük potensial var.

Lənkəranda olmaqdan məmnun olduğunu bildirən Peter Mixalko Avropa İttifaqı ilə Azərbaycan arasında çox güclü tərəfdaşlığın olduğunu deyib: "Azərbaycanda mandatıma yeni başlamışam, mərkəzi hakimiyyətlə yanaşı, regional qurumlarla da görüşmək çox vacibdir. Azərbaycana gəldiyim ilk gündən insanların qonaqpərvərliyindən təsirləndim. Aİ-nin ən böyük layihələrindən biri məhz Lənkəranda həyata keçirilib. Avropa Gününü də Bakıdan kənarda ilk dəfə Lənkəranda təşkil etdik".

P.Mixalko deyib ki, Aİ-nin Lənkəranda bu gün rəsmən açılışını edəcəyi "EU4Lankaran" layihəsi 2024-cü ilin sonuna kimi davam edəcək. Layihə biznes, kənd təsərrüfatı və mədəniyyət sahəsi üzrə dəstək tədbirlərini nəzərdə tutur.

## İşğaldan azad olunan ərazilərdə bölgə əhəmiyyətli suvarma kanalları yenidən qurulacaq

Azərbaycan Respublikasının işğaldan azad olunan ərazilərində meliorasiya və su təsərrüfatı kompleksinin bərpası və inkişafı Proqramı üzrə Tədbirlər Planına əsasən görüləcək bölgə əhəmiyyətli tədbirlər açıqlanıb.



Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov AZƏRTAC-a 2023-cü ilədək görüləcək işlər barədə məlumat verib. Bildirib ki, Suqovuşan hidroqovşağının və ondan su götürən magistral kanalın təmir-bərpası plana salınıb. 1976-cı ildə istismara verilmiş, ümumi sututumu 5,86 milyon kubmetr olan Suqovuşan su anbarı və ondan su götürən suburaxma qabiliyyəti saniyədə 70 kubmetr və uzunluğu 5,25 kilometr olan əsas magistral kanalın təmir-bərpası həyata keçiriləcək.

Tərtərçay Sol Sahil kanalının yenidən qurulması da nəzərdə tutulur. Tədbirlər Planına daxil edilmiş Tərtərçay Sol Sahil (sərfi saniyədə 20 kubmetr) kanalının yenidən qurulması ilə Tərtər, Goranboy, Yevlax və Bərdə rayonlarının 36 min hektar əkin sahələrinin su təminatında xeyli irəliləyiş əldə olunacaq.

Dilqəm Şərifov qeyd edib ki, növbəti illərdə Suqovuşan hidroqovşağından su götürən magistral kanaldan ayrılan sərfi 50 kubmetr/saniyə və uzunluğu 70 kilometr olan beton üzlüklü Tərtərçay Sağ Sahil kanalının təmir-bərpası ilə Tərtər, Ağdam və Ağcabədi rayonlarının əkin sahələrinin su təminatı daha da yaxşılaşacaq.

## Ağstafada yeni məktəb binasının tikintisi yekunlaşır

Heydər Əliyev Fondu tərəfindən Ağstafanın Həsənsu kəndində inşa edilən yeni məktəb binasında son tamamlama işləri görülür.

Artıq 420 şagirdlik iki korpusdan ibarət olan məktəbdə akt, idman, kitabxana zalları, fənn laboratoriyaları, yeməkxana, hərbi və texnologiya kabinetləri, eləcə də digər yardımçı və texniki otaqlar, həyətdə isə açıq tipli süni ot örtüklü idman meydançasında işlər yekunlaşmışdır. Həmçinin məktəbin ərazisi dekorativ daşlarla hasara alınaraq abadlaşdırılmışdır.

Ötən əsrin 30-cu illərində istifadəyə verilən köhnə məktəb binasının yararsız hala düşməsi tədrisin keyfiyyətinə mənfi təsir göstərirdi. Bununla belə, hər il məktəb yeni-yeni uğurlara imza atırdı. Yalnız cari tədris ili məktəbi bitirən 12 məzundan 8-i ali məktəblərə daxil olaraq tələbə adını qazanmışdır. Məktəbin məzunlarından xarici ölkələrdə təhsil alanlar da var.

Rayon təhsil şöbəsinin müdiri Mədət Zeynalov deyir ki, rayonda köhnə məktəb binalarının yenilənməsi davam edir. Təkcə cari tədris ili bir neçə kənddə modul tipli məktəb binası istifadəyə verilmişdir. Hazırda rayonun Kolayır, Yaradullu kəndlərinin, eləcə də Həzi Aslanov qəsəbəsinin şagirdləri hər cür şəraitə malik həmin məktəblərdə dərs keçirlər.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Ucarda taxıl sahələrinin 10 min hektarında normal çıxış alınıb



Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, cari ildə Ucarda 14 min 650 hektar sahədə taxıl əkiləcəyi proqnozlaşdırılır.

İndiyədək 13 min 162 hektar sahədə səpin aparılıb. Əkilən sahələrin 5317 hektarı buğda, 7845 hektarı isə arpadır. Bir sıra ərazilərdə, o cümlədən Boyat, Yuxarı Şilyan, Qazıqumlaq icra nümayəndəliklərində fermerlər və fiziki şəxslər səpini başa çatdırıblar. Artıq 10 min hektarda normal çıxış alınıb. Taxılçılar sahələrin suvarılmasını da ciddi diqqət mərkəzində saxlayırlar və bugünədək 8428 hektar sahənin suvarılması təmin olunub.

Reportaj

## Astara narıncı rəngə boyanıb



**Astarada sitrus meyvələrinin qızğın yığım dövrüdür. Fermerlər, torpaq mülkiyyətçiləri aylardan bəri zəhmətlə yetişdirdikləri limon, naringi, portağal, feyxoa, kinkan, kivi məhsullarını bağlardan yığıb-yığışdırmaqla məşğuldurlar.**



Sitrus bağlarının bar fəslidir

Kimi satdığını satır, qalanını doğma və əzizlərinə pay göndərir, kimi də meyvələri taxta yeşiklərə yığıb saxlayır ki, üzümüzə gələn Yeni il, Novruz bayramlarında bazara çıxarıb daha sərfəli qiymətə satsın. Bəzi bağlarda meyvələrin çox hissəsi artıq dərilib, bəzilərində isə yığım indi başlanır.

Astarada ən çox sitrus bağları olan Kijəbə qəsəbəsinə gedirik. Qəsəbə Lənkəran-Astara rayonlarını birləşdirən köhnə şose yolunun sağ tərəfində, silsilə dağların ətəyində yerləşir. Dağları bürüyən meşə ağaclarının bir çoxunun yarpaqları payızın gəlişi ilə rəngini dəyişmişdir. Belə ağaclardan biri, hətta birincisi dəmirağacdır. Eşitdiyimizə görə, bu onunla əlaqədardır ki, ağacın həm gövdəsinin, həm də yarpaqlarının tərkibində dəmir olduğu üçün payızda düşən yağışın, dağlara çökən dumanın təsirindən yarpaqları pas atır və onlar sarı-qırmızımtıl rəngə boyanır.

Magistral yoldan dönüb qərb istiqamətində dağlara tərəf gedən yolla irəliləyirik. Yol yoldaşım Müzəffər Mirzəyev mobil telefonu ilə kiməsə zəng edir:

- Abas, hardasınız? Biz artıq Kijəbə qəsəbəsindəyik. Aydındır, sizi başa düşdüm. - Telefonu qapadır, indi də mənə müraciətlə, - Abas Ağayevlə danışırdım, - deyir, - qabaqcıl fermerlərdəndir. Ali təhsilli aqronomdur. Əlindən gələn köməyi heç kəsdən əsirgəmir. Mülkiyyətçilər məsləhət almaq üçün həmişə ona müraciət edirlər. Bir az irəlidədir. Qardaşı oğlunun bağında meyvə yığılır, o da ordadır.

Dağların, yamacların ətəyi ilə qıvrıla-qıvrıla uzanan yolla bir neçə dəqiqə də gedirik. Yolun kənarında bir nəfər görünür. Bələdçim:

- Abas dediyim budur, - deyib idarə etdiyi maşını onun yanında saxlayır.

Düşüb görüşürük. Şose yolunun kənarındakı bağın dəmir məhəccərdən olan qapısını açıb bizi içəri - bağa dəvət edir. Ətrafa göz gəzdiririk. Əsrarəngiz mənzərədir. Ətrafdakı naringi, limon, feyxoa bağları, aşağıda payız yağışlarından sonra otların dərəni yaşıllığa bürüməsi, ondan yuxarı ərazidə isə ağ, qırmızı zanbaqlara oxşayan qırmızı kərpicdən tikilmiş kənd evləri bu yerlərin nə qədər gözəl təbiətə malik olduğunu göstərir. Bunlar hər bir insanı valeh edən mənzərələrdir. Yaxın gələcəkdə, koronavirus pandemiyası çəkilib getdikdən sonra bura turistlərin məskəninə çevrilə bilər.

Meyvə yığanların yanına çatırıq. Qızlar əllərindəki qayçı ilə meyvələri ehtiyatla dərərək vedrələrə yığırlar. Budaqlardan sallanan narıncı rəngli naringi göz oxşayır, adama zövq verir. Abasdan bağın kimin olduğunu soruşuruq.

- Qardaşımındır. Özünü yaxşı hiss etmədiyi üçün bir az öncə evə getdi. Ad onun olsa da, bağı becərən, hər bir əzab-əziyyətinə dözən gördüyünüz bu cavan oğludur. Adı Adildir, - deyir.

Adil Ağayevlə söhbətdən məlum olur ki, yaşadığı evin yaxınlığında naringi bağı saldığı 80 sot ərazi meşə fondu torpağıdır. Keçən il buradan 7 ton məhsul götürüb. Qazancı pis olmayıb. Çəkdiyi zəhmətin əvəzində bu il də o qədər məhsul gözləyir.

Qızların dərib vedrələrə doldurduqları məhsulu cavan oğlanlar aşağı hissədəki maşın yoluna daşıyıb gətirirlər. Burada isə onlar meyvələri zədələnməsin deyə ehtiyatla, səliqə ilə taxta yeşiklərə yığırlar. Yaxınlıqda sovet dövründən qalmış yük maşını dayanıb. Taxta yeşiklər dolduqdan sonra maşına yüklənib Adilin həyətinə aparılacaq. Öyrəndik ki, o, məhsulu həyətində tikdiyi anbar kimi tikilidə saxlayacaq. Bu isə çox da asan iş deyil. Anbarda lazımi temperatur rejiminin tənzimlənməsi, məhsulun gündəlik nəzarətdə saxlanması lazım gəlir. Eyni zamanda yeşiklərdəki meyvələr tez-tez yoxlanılmalı, xarab olanları götürülməlidir ki, qalan meyvələri də korlamasın.

Bağın becərilməsinin də öz qayğıları var. Meyvə yığılıb qurtarandan sonra hər bir ağacın dibini torpaqla 70 santimetr qaldırmalısan. Yoxsa qış aylarında şaxta vurub yandırır. Yazda isə bu torpağı götürmək, hər ağacın dibinə yanmış peyin, mineral gübrələr vermək tələb olunur. Mövsüm ərzində bağlar 5-6 dəfə suvarılmalıdır. Yeri gəlmişkən qeyd edək ki, Kijəbə qəsəbəsində yaşayan 2 min 700 və bu qəsəbə nümayəndəliyinin ərazisindəki Tüləgüvan kəndindəki 416 ailə təsərrüfatında əsasən sutrus meyvələri yetişdirilir.

Astara ryonunda A. Ağayev kimi işgüzar fermerlər çoxdur. Məhz onların yorulmaz zəhməti hesabına burada sitrus meyvəçiliyi inkişaf edir. Keçən ilin sonu və cari ilin əvvəlində rayonda 13,9 hektar naringi, 10 hektardan çox yeni feyxoa bağları salınmışdır. Bağların ümumi sahəsi 4 min 300 hektara çatmışdır. Sitrusçuluğun genişləndirilməsi, bu sahədə yeni və mütərəqqi üsulların tətbiqi faydasız qalmır. Bağların şaxtayadavamlı, daha məhsuldar sortlarla əvəzlənməsi üçün də tədbirlər görülür.

Çayçılığın, çəltikçiliyin inkişafı da diqqət mərkəzindədir. Rayonda 272,5 hektar çay plantasiyası mövcuddur ki, bunun da 137 hektarı məhsuldar, qalan 135,5 hektarı cavan plantasiyalardır. Artıq yaşıl çay yarpağı yığımı başa çatmışdır. 800 tona yaxın məhsul toplanmışdır ki, bu da keçən ildəkindən çoxdur.

Çəltikçilk Astara əhalisi üçün ənənəvi sahədir. Rayonda bu sahə ilə qədim zamanlardan məşğuldurlar. Son illər isə çəltikçiliyə maraq daha da artmışdır. Cari il rayon üzrə 240,6 hektarda çəltik əkilmişdir. Hər hektardan 41,5 sentner çəltik götürülmüşdür ki, bu da ölkədə ən yüksək göstərici olmuşdur. Bütövlükdə rayon üzrə 150 istehsalçı 998 tondan artıq məhsul əldə etmişdir.

Heyvandarlıq, tərəvəzçilik sahələrindəki göstəricilər də ürəkaçandır. Bütün bunlar onu göstərir ki, astaralılar başa çatmaqda olan 2021-ci ili alnıaçıq, üzüağ yola salırlar.

***Seyran CAVADOV, "Azərbaycan"***

## Aşağı Gövhər ağa məscidində bərpa işləri davam edir

Şuşada Aşağı Gövhər ağa məscidində bərpa işləri davam edir.

Bu barədə AZƏRTAC-a Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsindən məlumat verilib.

Qeyd edək ki, İbrahim xanın xeyriyyəçi qızı Gövhərnisə xanımın vəsaiti ilə 1874-1875-ci illərdə tikilən məscid işğal dövründə düşmən tərəfindən dağıdılıb. Məscidin memarı Kərbəlayi Səfixan Qarabağidir.

## İsmayıllıda 7,4 min tondan çox tərəvəz istehsal olunub

İsmayıllı rayonunda cari ildə 753 hektar sahədə tərəvəz bitkiləri əkilmişdi və artıq məhsul yığımı başa çatıb.

Bu barədə rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, tərəvəz əkini sahəsinin hər hektarından 99 sentner olmaqla 7 min 456 ton məhsul istehsal edilib. Məhsuldarlıq ötən illə müqayisədə 0,20 sentner çoxdur. Rayon ərazisində daha çox xiyar (194 hektar) və pomidor (159 hektar) əkilmişdi ki, bu da ümumi tərəvəz sahələrinin 47 faizini təşkil edir.

Tərəvəz əkinləri əsasən rayonun suvarma suyu ilə təminatı daha yaxşı olan Kürdmaşı, Qalınçaq kəndlərində və İsmayıllı şəhər ərazisində aparılır.

# Dünyanın «Omikron» həyəcanı

## Bəzi ölkələr koronavirusun sürətlə yayılan yeni növünə görə qapanmalara gedib, sərhədlərini bağlayıblar




COVID-19-un "Delta plyus" ştamının təhlükəsi getməmiş bu virusun yeni növü ölkələr üçün təhdid olaraq görülməyə başlanıb. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) artıq dövlətləri COVID-19-un "Omikron" (B.1.1.529 ştamı) adlanan ən yeni ştamının təhlükəli ola biləcəyindən ciddi şəkildə xəbərdar edib. ÜST-nün bu narahatlığı "Omikron"un indiyədək qeydə alınan növlərdən daha sürətlə yayıla bilməsi ilə izah edilir.

Amma "Omikron"un "Delta" da daxil olmaqla, digər variantlarla müqayisədə insandan insana daha asan keçməsi, o cümlədən hansı ağır fəsadlara səbəb olması hələ aydın deyil. Yeni ştamın ilk qeydə alındığı Cənubi Afrikada son günlərdə COVID test nəticəsi müsbət olanların sayı artsa da, bunun "Omikron" və ya digər amillərlə əlaqəli olub-olmadığı tam müəyyən edilməyib. Hazırda Cənubi Afrikada və dünyanın digər ölkələrində tədqiqatçılar "Omikron"un bir çox aspektini daha yaxşı öyrənmək üçün araşdırmalar aparırlar. Tədqiqatların nəticələri məlum olduqda ictimaiyyətə bu barədə məlumat veriləcəkdir. ÜST də bütün ölkələri koronavirusun yeni variantının öyrənilməsinə daha çox diqqət yetirməyə çağırıb.

### "Omikron"un ağırlıq səviyyəsini öyrənmək üçün həftələr lazım olacaq

ÜST koronavirusun digər ştamları kimi yeni ştamı da yunan hərfi ilə adlandıraraq onu dünyaya "Omikron" (O) kimi təqdim edib. Təşkilat bu ştamı "narahatlıq doğuran variantlar" qrupuna daxil edib ki, adları buraya salınanlar ötürülmə sürətinin artması, xəstəliyin klinik təzahürlərinin dəyişməsi ilə xarakterizə olunur. Bu variantlar koronavirusun müalicəsi üçün mövcud diaqnostika, peyvənd və dərmanların effektivliyini azalda bilər. İnsanın "Omikron"a yoluxub-yoluxmadığını PCR testi vasitəsilə müəyyən etmək mümkündür. ÜST-nün apardığı qiymətləndirmələr nəticəsində yeni ştamın PCR testlərini tanıdığı təsdiqlənib.

Hazırda "Omikron"un simptomlarının digər variantlardan fərqləndiyini göstərən heç bir məlumat yoxdur.

Cənubi Afrika Tibb Assosiasiyasının prezidenti Angelique Coetzee "Omikron"un ilk simptomlarının hələlik yüngül olduğunu bildirib. Bu simptomlar əzələ ağrısı, yorğunluq, bir-iki gün özünü yaxşı hiss etməmək, yüngül öskürək ilə özünü göstərir. Lakin bu da nəzərə alınmalıdır ki, həmin simptomlar koronavirusun hər hansı növünə qarşı daha həssas olan insanlar arasında deyil, sağlam gənclər arasında müşahidə edilib. Buna görə də "Omikron"un ağırlıq səviyyəsini aydınlaşdırmaq üçün bir neçə həftə lazım olacaq.

### Yeni ştam inanılmaz dərəcədə mutasiyaya uğrayıb

Alimlər deyirlər ki, COVID-in yeni ştamı Çinin Uhan şəhərində ortaya çıxan orijinaldan köklü şəkildə fərqlənir. Bu ştam inanılmaz dərəcədə mutasiyaya uğrayıb, onda bunun sayları daha çoxdur. Həmin mutasiyaların bəzilərinə digər variantlarda əvvəllər rast gəlinsə də, aralarında tamamilə yeni olanları da var. Ona görə də yeni mutasiyaların xəstəliklə mübarizə baxımından narahatlıq doğurduğu deyilir. Elm adamlarının bir qismi "Omikron"u indiyə qədər aşkar edilmiş növlər arasında ən ağır mutasiyaya uğramış ştam kimi qiymətləndirirlər. Yeni növlə bağlı iddia edilən məlumat odur ki, "Omikron" asanlıqla yayıla bilən və xəstəliyi şiddətli hala gətirəcək bir mutasiyaya sahibdir. Cənubi Afrikadakı Epidemik Müdaxilə və İnnovasiya Mərkəzinin direktoru, professor Tulio de Oliveyra bu variantın digərlərindən çox fərqləndiyini söyləyib.

Böyük Britaniyanın Sağlamlıq Təhlükəsizliyi Agentliyinin icraçı direktoru Jenny Harries orijinal koronavirusla müqayisədə yeni növdə fərqli sünbül proteinin olduğunu açıqlayıb. O qeyd edib ki, "Omikron" bugünə qədər rastlaşdıqları ən güclü variantdır. Onun yoluxma dərəcəsi, şiddəti və peyvənd həssaslığı haqqında daha çox öyrənmək məqsədilə təcili tədqiqatlar aparılır.

İngiltərənin səhiyyə naziri Sajid Cavid də "Omikron"da mutasiyaların sayının daha çox olmasından narahatdır: "Bizim bildiyimiz odur ki, "Omikron"da hazırda əhəmiyyətli sayda mutasiya var. Bu say bəlkə də "Delta" variantında gördüyümüz mutasiyaların sayından iki dəfə çoxdur".

### Azərbaycana gəldikdə...

"Omikron" Cənubi Afrikadan sonra bəzi ölkələrdə də qeydə alınıb. Avropada koronavirusun yeni variantına ilk yoluxma Belçikada aşkar olub. Bu ştama Misirdən Belçikaya qayıdan bir insanda rast gəlinib. Noyabrın 22-də həmin şəxsdə xəstəliyin ilk simptomları müşahidə edilib. Artıq Çin, İsrail, Böyük Britaniya, Almaniya, İtaliya "Omikron"a yoluxma hallarının baş verdiyi ölkələrdir.

Azərbaycana gəldikdə, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin genetika mütəxəssisi Ağa Rza Ağayev bildirib ki, bütün mutasiyalar və əlaqəli ştamlar üzrə yoxlamalara başlanılıb. Azərbaycana xaricdən daxil olan, həmçinin ölkə ərazisində cluster tipli yoluxma görülən və şübhəli bilinən bütün nümunələr toplanılır və analiz edilir. Müvafiq yoxlamalarda hələ ki yeni ştam aşkarlanmayıb.

Qeyd edək ki, "Omikron"a hələlik bir çox ölkələrdə rast gəlinməsə də, ÜST bu ştamın xüsusiyyətlərini nəzərə alıb COVID-19 hallarında artım ola biləcəyini bildirib. ÜST bu ştamla əlaqədar qlobal riski "çox yüksək" dəyərləndirib. ÜST üzv ölkələri peyvənd proqramlarının icrasını sürətləndirməyə çağırıb.

ÜST rəsmiləri "Omikron"da sayda mutasiya olduğu üçün peyvənd proqramının mümkün qədər tez həyata keçirilməsini, ən həssas təbəqələrə aid olan insanları qorumaq üçün səyləri sürətləndirməyi olduqca vacib sayırlar.

### Mövcud vaksinlər təsirlidirmi?

Yeni ştamın sürətlə yayılması hər kəsi bu barədə düşünməyə vadar edir: görəsən, mövcud peyvəndlər "Omikron"a qarşı effektlidirmi? Hələlik bu suala konkret cavab verilməyib. Mütəxəssislərin bəziləri peyvəndlərin yeni ştama qarşı az təsirli olduğunu iddia edir. Amma bu da hələlik öz təsdiqini tapmayıb. Çünki peyvəndlərin yeni ştama qarşı daha az təsirli olub-olmadığını öyrənmək üçün müəyyən zaman lazımdır.

Böyük Britaniyanın Sağlamlıq Təhlükəsizliyi Agentliyinin icraçı direktoru Jenny Harries bildirib ki, bu variant peyvəndləri səmərəsizləşdirə və pandemiya ilə mübarizə səylərini puç edə bilər.

Kaliforniya Universitetinin epidemiologiya professoru Corc Ruterford isə daha ümidverici proqnozlar verib. O, mövcud peyvəndlərin koronavirusun müxtəlif növlərinə qarşı təsirli olduğunu, Afrikadan gələn yeni ştamın da bu sırada istisnalıq təşkil etməyəcəyini düşünür.

ABŞ-ın COVID-19 ilə mübarizə üzrə işçi qrupunun keçmiş müşaviri Endi Slavitt bildirib ki, dekabrın əvvəlində işə başlanılarsa, o zaman bu ştama qarşı yeni peyvəndlər 2022-ci ilin yayına qədər bütün dünya üçün əlçatan olacaq. Sabiq müşavirin sözlərinə görə, "Pfizer" və "Moderna" kimi əczaçılıq şirkətlərinə koronavirusun yeni variantına qarşı peyvənd hazırlamaq üçün 100 gün lazımdır. Vaksinlərin effektivliyinin qiymətləndirilməsi isə təxminən iki həftə çəkəcək.

ABŞ-ın baş infeksionisti Entoni Fauçi isə ştamdan qorunmaq üçün ən etibarlı yolun revaksinasiya olduğunu açıqlayıb: "Bizə 2 həftə vaxt lazımdır ki, bu ştamın yoluxuculuğu, ağırlıq dərəcəsi və digər təsirləri barədə dəqiq informasiya əldə edək. 2 doza peyvənd olunmuşların buster dozanı vurdurması istənilən mutasiyadan ağırlaşmanın qarşısını ala bilər. Bütün peyvənd olunmuş şəxslər mümkün qədər tez üçüncü dozanı vurdursunlar".

### Ölkələr sərt tədbirlər görməyə başladı

Koronavirusun təhlükəli hesab edilən yeni növünün aşkarlanması ölkələri artıq sərt tədbirlər görməyə məcbur edib. Yeni ştamın ilk qeydə alındığı ölkələrdən olan İsrail Cənubi Afrika da daxil olmaqla, bu region "qırmızı ölkə" kateqoriyasına daxil edilib. Belə ki, tam peyvənd olunmuşlar da daxil olmaqla, həmin ölkələrdən geri qayıdan israillilərdən bir həftə ərzində dövlət tərəfindən idarə olunan hoteldə təcrid edilməsi, iki mənfi PCR testinin nəticəsindən sonra karantindən buraxılması tələb edilir. Geri qayıdanlar hər hansı bir sınaqdan imtina edərsə, o zaman iki həftə ərzində karantində saxlanılacaqlar. İsraildə yayılmanın qarşısını almaqdan ötəri fərqli bir planın həyata keçirilməsi üçün səlahiyyətlərə əlavə tapşırıqlar da verilib.

ABŞ hökuməti yeni növ ştamla əlaqədar bəzi Afrika ölkələrinin sakinlərinin girişinə qadağa qoyub. Oxşar qadağa Türkiyə və Rusiya tərəfindən də edilib. Böyük Britaniya Cənubi Afrika, Namibiya, Botsvana, Zimbabve, Lesoto və Esvatinidən olan aviauçuşları müvəqqəti dayandırmaqla yanaşı, bu istiqamətlərdən qayıdan vətəndaşların karantində qalmasını qərara alıb. Yeni təhlükə ilə əlaqədar Almaniya yalnız onun pasportu ilə Cənubi Afrikaya səyahət edən vətəndaşlarının ölkəyə daxil ola biləcəyini açıqlayıb. İtaliya son 14 gündə Afrikanın bəzi ölkələrinə, o cümlədən Cənubi Afrikaya səfər etmiş şəxslərin ölkəyə girişini qadağan edib.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

**Dünya gündəmi**

# 2 trilyon dollarlıq zərər

## Qlobal pandemiya 2021-ci ildə dünya turizminə də böyük böhran yaradıb

COVID-19 pandemiyası nəticəsində 2021-ci ildə dünya turizmi təxminən 2 trilyon ABŞ dolları məbləğində gəlirdən məhrum olacaq. Bu barədə BMT-nin Ümumdünya Turizm Təşkilatının (UNWTO) hesabatında deyilir.



Bildirilir ki, bu göstərici 2020-ci ildə itkilərin məbləği ilə müqayisə oluna bilər, lakin iki il əvvəl qeydə alınmış zərərdən azdır.

UNWTO iyul-sentyabr aylarında təyinat ölkələrinə turistlərin giriş sayının 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 58 faiz artmasını qeydə alsa da, bu göstəricilər 2019-cu ilin səviyyəsindən 64 faiz aşağıdır.

Avqust və sentyabr aylarında səfərlərin sayı pandemiyanın başlanğıcından bəri maksimum həddə çatıb, lakin hələ də 2019-cu il göstəricisindən 63 faiz aşağı olub.

### Asiya-Sakit okean regionuna girişlərin sayı 95 faiz azalıb

Avropa, eləcə də Şimali və Cənubi Amerika bu sahədə 2021-ci ilin üçüncü rübündə nisbi artım göstərsələr də, Asiya-Sakit okean regionuna (ASR) gəlişlərin sayı 2019-cu illə müqayisədə 95 faiz azalmışdır. Avstraliya, Yeni Zelandiya, Sinqapur və Çin də daxil olmaqla bir sıra Asiya-Sakit okean regionu ölkələri COVID-19-a münasibətdə "sıfır tolerantlıq" siyasətini yürüdürlər və beynəlxalq girişlərə ciddi məhdudiyyətlərə hələ də riayət edirlər.

Əgər aparıcı istiqamətlər haqqında danışsaq, onda Xorvatiya, Meksika və Türkiyədə ən güclü bərpa iyul - sentyabr aylarında qeydə alınmışdır. Karib hövzəsi dövlətləri isə BMT-nin hesabatında göstərilən bütün subregionlar arasında ən yüksək göstəricilər nümayiş etdiriblər: oraya gəlişlərin sayı 2020-ci illə müqayisədə 55 faiz artmışdır.

### Pandemiya dövründə neft qiymətlərinin oynaması

UNWTO-nın hesabatına görə, dünyada peyvəndləmənin qeyri-bərabər göstəriciləri və COVID-19-un yeni mutasiyaları onsuz da ləng gedən və kövrək olan bərpa prosesinə təsir göstərə bilər. Virusun yeni "Omikron" variantı ilə bağlı narahatlıqlar bir sıra ölkələrdə səfərlərə növbəti dəfə məhdudiyyətlər yaradıb.

Hesabatda bildirilir ki, pandemiya ilə yanaşı, neft qiymətlərinin sıçrayışları, eləcə də qlobal təchizat zəncirinin pozulması turizmə təsir göstərə bilər.

UNWTO-nın baş katibi Zurab Pololikaşvili turistlərin daha dəqiq səyahət planlarını həyata keçirmək imkanına malik olmaları üçün ölkələri tətbiq etdikləri məhdudiyyətləri öz aralarında razılaşdırmağa çağırıb. Onun fikrincə, söhbət sənayedə tarixi böhrandan gedir. Eyni zamanda, Pololikaşvili əmindir ki, turizm kifayət qədər tez bərpa oluna bilər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"
***qəzeti 2022-ci il üçün abunə yazılışı kampaniyasına başlayır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 20 oktyabr 2021-ci il "Azərişıq" ASC-nin cəbhəyanı rayonlarda Qərb və Aran regionları üzrə elektrik təsərrüfatına dəymiş zərərlərin aradan qaldırılması üçün elektrik şəbəkələrində görüləcək işlərin satın alınması üzrə təkliflər sorğusu üsulu ilə keçirilmiş tender müsabiqəsində Tender komissiyasının qərarına əsasən "METATRON İNŞAAT" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 29.11.2021-ci il tarixdə ƏDV daxil 4 246 099,70 AZN (dörd milyon iki yüz qırx altı min doxsan doqquz manat 70 qəpik) məbləğində müvafiq podrat müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən 20 oktyabr 2021-ci il "Azərişıq" ASC-nin cəbhəyanı rayonlarda Mərkəzi Aran regionu üzrə elektrik təsərrüfatına dəymiş zərərlərin aradan qaldırılması üçün elektrik şəbəkələrində görüləcək işlərin satın alınması üzrə təkliflər sorğusu üsulu ilə keçirilmiş tender müsabiqəsində Tender komissiyasının qərarına əsasən "MSDIS HOLDING" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə ƏDV daxil 29.11.2021-ci il tarixdə 5 213 263,61 AZN (beş milyon iki yüz on üç min iki yüz altmış üç manat 61 qəpik) məbləğində müvafiq podrat müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 19 oktyabr 2021-ci il tarixli sayında Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi tərəfindən Qarabağda turizm resurslarının təhlili və turizm potensialının mövcud vəziyyətinin qiymətləndirilməsi işlərinin satın alınması ilə əlaqədar dərc edilmiş təkliflər sorğusunda "Dampo Danışmanlık Araştırma Mimarlık Planlama Ltd." şirkəti qalib elan olunmuşdur.

Həmin şirkətlə 2021-ci il noyabrın 26-da müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### yeni tikilən gəmilər üçün illüminator və gəmi qapılarının satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 07 dekabr 2021-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### balansında olan gəmilər üçün müxtəlif "IMO" nişanların (təhlükəsizlik nişanları) satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 02 dekabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində

**HEYƏT ÜZVLƏRİNİN**

həlak olmasından kədərləndiklərini bildirir, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Məhəmməd Nərimanoğluna əzizi

**KƏKLİK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Abşeron rayon prokuroru Qabil Qasımova bacısı

**GÜNƏŞ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5591**
**Sifariş 2460**
**Qiymәti 40 qəpik**